RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 215 (9094) ÇƏRŞƏNBƏ AXŞAMI, 4 oktyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



Zəfərin izi ilə

## Azad edilən ilk şəhər



## 27 illik Cəbrayıl həsrətinə 8 gündə son qoyuldu

**4 oktyabr 2020-ci il...**
**Döyüşlərin 8-ci günü...**

Hər bir azərbaycanlı cəbhədən növbəti xoş xəbəri eşitmək üçün ekran başında, sosial şəbəkələrdə səbirsizliklə gözləyir. Nəhayət, axşam 20:00 radələrində Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində daha bir qələbə xəbərini verir: "Bu gün Azərbaycan Ordusu Cəbrayıl şəhərini və rayonunun bir neçə kəndini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

Bu, Prezidentdən aldığımız ikinci müjdəli xəbər idi. Suqovuşanın azad olunma xəbərindən sonra xalqımız hər gün dövlət başçısından xoş xəbərlər gözləyirdi. Artıq hər kəsdə qələbə ruhu duyulurdu. Cəbrayıl 27 illik işğaldan sonra düşməndən azad edilən ilk şəhər idi. Eyni zamanda həmin gün Cəbrayıl rayonunun Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan, Decal kəndləri də işğaldan azad edildi. Beləliklə, Cəbrayıl şəhərində də Azərbaycan bayrağı dalğalanırdı.

Oktyabrın 4-dən etibarən, demək olar ki, hər gün Cəbrayıl rayonunun kəndlərinin bir-bir işğaldan azad edildiyi xəbərlərini alırdıq. Ümumilikdə İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan Ordusu tərəfindən Cəbrayıl rayonunun 1 şəhər və 80 kəndi işğaldan azad olunub. Cəbrayılın erməni silahlı birləşmələrindən təmizlənməsi ilə Azərbaycan-İran sərhədinə dövlətimizin nəzarəti qismən bərpa edilib.

Tarixə nəzər: Cəbrayıl rayonu 8 avqust 1930-cu ildə təşkil edilib. 4 yanvar 1963-cü ildə ləğv edilərək Füzuli rayonuna birləşdirilib, 17 iyun 1964-cü ildə isə yenidən yaradılıb. Rayon cənubdan Araz çayı boyu İran İslam Respublikası ilə həmsərhəddir. 1993-cü il avqustun 23-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilərkən Cəbrayıl rayonu 1 şəhər, 4 qəsəbə və 97 kənddən ibarət idi.

Birinci Qarabağ müharibəsi zamanı düşmənə ciddi müqavimət göstərən rayon 400-ə yaxın şəhid verib, 177 nəfər əlil olub, 91 nəfər əsir və itkin düşüb. Erməni işğalçılarına qarşı döyüşlərdə Cəbrayıldan olan 6 nəfər göstərdikləri igidliyə görə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

→ 5

## Avropa İlham Əliyevin global liderliyini etiraf etdi



### Qitə ölkələrinin rəhbərləri Azərbaycan Prezidentinin enerji təhlükəsizliyi ilə bağlı qətiyyətli fəaliyyətini yüksək qiymətləndirirlər

Prezident İlham Əliyev Bolqarıstana rəsmi səfəri, Sofiyada keçirilən görüşlər, o cümlədən Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimi bir daha Azərbaycanın Avropa İttifaqına üzv dövlətlərlə əlaqələrinin strateji məzmun daşıdığını göstərdi. Bu səfərin, danışıqların və görüşlərin növbəti dəfə təsdiq etdiyi başqa bir gerçəklik isə Avropanın İlham Əliyevin liderliyini qəbul etməsi oldu.

→ 9

## Prezident İlham Əliyev Beynəlxalq Şahmat Federasiyasının prezidentini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Beynəlxalq Şahmat Federasiyasının prezidenti Arkadi Dvorkoviçi qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Beynəlxalq Şahmat Federasiyası arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı. Ölkəmizdə idmanın digər növləri kimi, şahmatın inkişafına da dövlət səviyyəsində böyük diqqət və qayğı göstərildiyi bildirildi. Azərbaycanlı şahmatçıların beynəlxalq yarışlarda qazandığı uğurlar qeyd olundu.

Söhbət zamanı ötən ay Şuşada keçirilən beynəlxalq şahmat turnirinin əhəmiyyətinə toxunuldu, oktyabrın 2-də Arkadi Dvorkoviçin Naxçıvanda keçirilən 16 yaşadək yeniyetmələr arasında Ümumdünya Şahmat Olimpiadasının açılışında iştirakından məmnunluq bildirildi.

Görüşdə gələcəkdə Azərbaycanda şahmat üzrə nəzərdə tutulan beynəlxalq əhəmiyyətli turnirlər barədə fikir mübadiləsi aparıldı.

## Ən yüksək nəticə göstərmiş bir qrup tələbəyə Prezident təqaüdü veriləcək

Bununla bağlı Prezident müvafiq sərəncam imzalayıb

→ 2

## Ömər Faiq Nemanzadənin 150 illik yubileyi qeyd ediləcək

Prezident İlham Əliyevin imzaladığı sərəncamla Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Ömər Faiq Nemanzadənin 150 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirəcək

→ 2

## "Almaniya bizim üçün vacib tərəfdaş və dost ölkədir"

Almaniya Federativ Respublikasının Prezidenti zati-aliləri cənab Frank-Valter Ştaynmayerə

Hörmətli cənab Prezident.

Ölkənizin milli bayramı - Alman Birliyi Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan-Almaniya əlaqələrinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk. Almaniya bizim üçün vacib tərəfdaş və dost ölkədir. Diplomatik münasibətlərimizin qurulduğu ötən onilliklər ərzində dövlətlərarası əlaqələrimizin dinamik inkişaf etməsi, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığımızın genişlənməsi məmnunluq doğurur.

Hazırda qarşılıqlı faydalı tərəfdaşlığımızın daha da inkişaf etdirilməsi üçün geniş imkanlar vardır. İnanıram ki, Azərbaycan ilə Almaniya arasında istər ikitərəfli qaydada, istərsə də Avropa İttifaqı çərçivəsində fəal əməkdaşlıq əlaqələri bundan sonra da xalqlarımızın və ölkələrimizin rifahına xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Almaniya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2022-ci il*

## Azərbaycan-Koreya əlaqələri yüksələn xətlə inkişaf edir

Koreya Respublikasının Prezidenti zati-aliləri cənab Yun Sok Yola

Hörmətli cənab Prezident.

Ölkənizin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Diplomatik əlaqələrin qurulmasının 30 illiyini qeyd edən Azərbaycan ilə Koreya arasında dostluq münasibətlərinin hazırkı vəziyyəti məmnunluq doğurur. Ötən dövr ərzində dövlətlərarası əlaqələrimiz yüksələn xətlə inkişaf etmiş, qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığımız dərinləşmişdir.

Koreya şirkətləri Azərbaycanda bir sıra layihələrin həyata keçirilməsində uğurla iştirak edirlər. Bu gün ölkəmizin işğaldan azad olunmuş ərazilərində aparılan əsaslı bərpa və yenidənqurma işləri əməkdaşlığımızın əhatə dairəsinin genişlənməsi üçün əlverişli şərait yaradır. İnanıram ki, birgə səylərimizlə Azərbaycan-Koreya əlaqələrinin mövcud potensialından səmərəli istifadə edərək qarşılıqlı fəaliyyətimizin daha da inkişafına nail ola bilərik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Koreya Respublikasına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2022-ci il*

# Prezident İlham Əliyev İsrailin müdafiə nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də İsrailin müdafiə naziri Benyamin Qansı qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkə arasında uzun illər davam edən hərbi-texniki əməkdaşlıq və bu sahədə perspektivlər barədə fikir mübadiləsi aparılıb.

## 2022/2023-cü tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. 2022/2023-cü tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü verilsin:

Abasova Aysel Faiq qızı
Abbaslı Qüdrət Ayaz oğlu
Abdulhəlimova Fidan Fuad qızı
Abuşova Xədicə Vüqar qızı
Ağayeva Leyla Aslan qızı
Aslanov Arif Mir Abbas oğlu
Babaşov Məhəmməd Şəfayət oğlu
Babayev Elnar Elnur oğlu
Bağırov Yunsur Nofəl oğlu
Baxşəliyeva Nərgiz Elçin qızı
Behputov Elnur Elxan oğlu
Bünyadov İslam Elnur oğlu
Camaləddinli Cəmil Mürşüd oğlu
Cavadov Ayxan Rövşən oğlu
Cəfərova Fidan Qulu qızı
Dəmirli Ayan Vüqar qızı
Dünyamalıyeva Nuray Elnur qızı
Eynullazadə Leyla Sahil qızı
Eyvazova Aydan Tariyel qızı
Əhmədov İlkin Hikmət oğlu
Əhmədov Vaqif Tehran oğlu
Əkbərbəyov Əliəkbər Firuz oğlu
Əlili Banu Səyavuş qızı
Əli-Pur Selcan Zaur qızı
Əlizadə İsmayıl Ceyhun oğlu
Əlizadə Nigar Ədalət qızı
Əsgərov Murad Zöhrab oğlu
Fərhadlı Gözəl Rəfayıl qızı
Fərzaliyeva Nərmin Vahid qızı
Fətəliyeva Sara Mehman qızı
Fətizadə Ləman Mehdi qızı
Hacılı Rəfiqə Natiq qızı
Heydərov İsa Mehman oğlu
Həbibli Məcid Cəfər oğlu
Həsənquliyeva Nübar Novruz qızı
Həsənova Aytac Azər qızı
Humaylı Xalidə Nizami qızı
Hümmətova Məsər Hafis qızı
Hüseynzadə Rəhman Şahin oğlu
Hüseynzadə Şəhanə Şahin qızı
İbrahimli Sənan Ədalət oğlu
İbrahimov Safəddin Xalid oğlu
İbrahimova Turanə Həmzə qızı
İskəndər Murad Nazim oğlu
İskəndərli Tükəzban Hüseyn qızı
İsmayılov Elmir Elnur oğlu
Kazımlı Yusif Qurban oğlu
Qafarlı Mirəli Əhliman oğlu
Qafarzadə Vəfa Araz qızı
Qəribov Taley Fəxrəddinoviç
Qismətli Fidan Vüqar qızı
Qocayev Şah-İsmayıl Bəhruz oğlu
Quliyev Elmir Elnur oğlu
Quliyev Fərid Mübariz oğlu
Quluzadə Əkbər Camal oğlu
Qurbanov Fuad Polad oğlu
Mahmudova Solmaz Mahir qızı
Mamedova Fədayə Cabir qızı
Mehdiyeva Turac Çingiz qızı
Mehdiyeva Zeynəb Səbuhi qızı
Mehdizadə Sadıq Ramil oğlu
Məcidov Həmid Əzizağa oğlu
Məlikov Ziya Xəyal oğlu
Məlikova Nəzrin Emin qızı
Məmiyev Fuad Məhəmməd oğlu
Məmməd Esmanur Elsevər qızı
Məmmədli Anar Mübariz oğlu
Məmmədli Leyla Yaşar qızı
Məmmədov Çingiz Səyyaf oğlu
Məmmədov Natiq Nabir oğlu
Məmmədov Ümman Maroz oğlu
Məmmədzadə Nurtac Mətləb qızı
Müseyibzadə Emil Hafiz oğlu
Namazlı Aytən Nazim qızı
Namazova Həyat İsmayıl qızı
Nəbiyev Əli Siyavuş oğlu
Nəsrullayev Akşin Zahir oğlu
Nurəddinli Tural Vüsal oğlu
Nuriyev Ömər Sənan oğlu
Orucov Nəcməddin Nəsimi oğlu
Paşayev Urfan Taleh oğlu
Rəcəbov Nurlan Bəylər oğlu
Rəfibəyli Fidan İbad qızı
Rəhimli Nəzrin Rahim qızı
Rəsulov Kənan Asiman oğlu
Rüstəmova Sevinc Bəylər qızı
Sadıxova Ləman Səbuhi qızı
Sadıqlı Nərmin Arif qızı
Sadıqova Həmidə Cəmşid qızı
Sadıqova Nəzrin Cəmşid qızı
Sarıyev Rişad Aqil oğlu
Süleymanov Elmir Mürşüd oğlu
Süleymanova Jalə Qüdrət qızı
Süleymanova Şəhla Orxan qızı
Şükürov Cahangir Zaur oğlu
Vəlikişiyeva Nigar Adil qızı
Vəliyeva Nərmin Məhərrəm qızı
Yusibov Şəhriyar Səfa oğlu
Yusifov Muraz İmran oğlu
Zeynallı Xaqani Nizami oğlu
Zeynalov İbrahim Azər oğlu
Zeynalov Şamil Pərviz oğlu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 oktyabr 2022-ci il*

## Azərbaycan XİN AZƏRTAC-ın Ukraynada cərəyan edən son hadisələrlə bağlı sualını cavablandırıb

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Leyla Abdullayeva Ukraynada cərəyan edən son hadisələr, Ukraynanın ərazi bütövlüyünün və suverenliyinin Azərbaycan tərəfindən dəstəklənməsi ilə bağlı AZƏRTAC-ın sualını cavablandırıb.

Leyla Abdullayeva deyib: "Azərbaycan və Ukrayna hər zaman qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib və bu xüsusda Azərbaycanın mövqeyində heç bir dəyişiklik yoxdur".

## Azərbaycan Cüdo Federasiyasının 50 illik yubileyi münasibətilə bir qrup idman mütəxəssisinə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan cüdosunun inkişafında xidmətləri olan aşağıdakı şəxslərə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adı verilsin:

Məmmədli Elnur Çingiz oğlu
Qarayeva Sevda Qiyas qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 oktyabr 2022-ci il*

## Azərbaycan Cüdo Federasiyasının 50 illik yubileyi münasibətilə bir qrup şəxsin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan cüdosunun inkişafında xidmətləri olan aşağıdakı şəxslər təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**

Həsənov Tərlan Əliheydər oğlu
Rəcəbli Əhməddin İzət oğlu

**"Tərəqqi" medalı ilə**

Kələntərov Ceyhun Musa oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri 3 oktyabr 2022-ci il*

## Milli Məclisin Sədri Sahibə Qafarova "Böyük İyirmilik" ölkələri Parlament Sədrlərinin 8-ci Sammitində iştirak edəcək



Milli Məclisin Sədri Sahibə Qafarova "Böyük İyirmilik" ölkələrinin Parlament Sədrlərinin 8-ci Sammitində iştirak etmək üçün oktyabrın 4-də İndoneziya Respublikasının paytaxtı Cakarta şəhərinə səfər edəcək.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdə Milli Məclisin Sədrinin müzakirə olunacaq məsələlərlə bağlı çıxış edəcəyi gözlənilir.

Səfər çərçivəsində Azərbaycan parlamenti sədrinin sammitdə iştirak edəcək ölkələrin nümayəndə heyətlərinin rəhbərləri ilə bir sıra görüşləri nəzərdə tutulub. Görüşlərdə parlamentlərarası əlaqələrin inkişaf perspektivləri, ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi və digər məsələlər barədə fikir mübadiləsi aparılacaq.

***"Azərbaycan"***

## Hərbi hissənin yaradılmasının 22-ci ildönümü Laçında qeyd edilib

Oktyabrın 3-də "N" hərbi hissənin yaradılmasının 22-ci ildönümü münasibətilə Laçında tədbir keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, eləcə də Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edənlər hərbi hissənin yaranma tarixindən, Vətən müharibəsində keçdiyi döyüş yolundan və qarşısında duran vəzifələrdən danışıblar. Qeyd olunub ki, bir çox uğurlu əməliyyatlarda iştirak edən hərbi hissə qarşıya qoyulan döyüş tapşırıqlarının öhdəsindən layiqincə gəlib.

Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu istiqamətində apardığı siyasətin bu gün Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi vurğulanıb. Bildirilib ki, dövlətimizin başçısının diqqət və qayğısı nəticəsində hərbi hissənin döyüş hazırlığının yüksək səviyyədə saxlanılması, eləcə də şəxsi heyətin sosial-məişət şəraiti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılıb.

Sonda xidmətdə fərqlənən, yüksək nizam-intizamı ilə seçilən bir qrup hərbi qulluqçu mükafatlandırılıb.

## Ömər Faiq Nemanzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2022-ci ilin dekabr ayında Azərbaycan milli mətbuatının böyük nümayəndəsi, görkəmli publisist, tanınmış maarifçi və ictimai xadim Ömər Faiq Nemanzadənin anadan olmasının 150 ili tamam olur.

Ömər Faiq Nemanzadə XX əsrin əvvəllərində Azərbaycan mətbuatı tarixinə parlaq səhifələr yazmış və son dərəcə mürəkkəb şəraitdə onun inkişafına istiqamət verərək keyfiyyətcə yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış maarifpərvər ziyalılardandır. Ədəbi-mədəni həyatda mühüm hadisəyə çevrilmiş "Qeyrət" mətbəəsinin və Yaxın Şərq ölkələri ədəbiyyatında demokratik meyillərin güclənməsinə qüvvətli təsir göstərmiş məşhur "Molla Nəsrəddin" jurnalının yaradılması ədibin gərgin və səmərəli fəaliyyətinin ayrılmaz tərkib hissələridir. Ana dilinə sevgini vətənə məhəbbətin ən vacib şərti sayan geniş erudisiyalı, fədakar qələm sahibi doğma xalqının mədəni dirçəlişi, istiqlalı və xoşbəxt gələcəyi naminə bilik və bacarığını əsirgəmədən əzmlə mübarizə aparmışdır. Ümumxalq əhəmiyyəti daşıyan bütün taleyüklü məsələlərin zamanın qabaqcıl ideyaları fonunda daim azərbaycançılıq məfkurəsi cəbhəsindən işıqlandırılması Ömər Faiq Nemanzadənin milli ideyalarla zəngin və dərin siyasi-ictimai məzmuna malik publisistik irsinin başlıca leytmotivini təşkil etmişdir.

Dövrün vətənpərvər ruhlu bir çox şəxsiyyətləri kimi Ömər Faiq Nemanzadə də totalitar sovet rejiminin 1930-cu illər repressiyasının qurbanlarından olmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan milli mətbuatının inkişafına dəyərli töhfələr vermiş görkəmli maarifçi-ziyalı Ömər Faiq Nemanzadənin anadan olmasının 150-ci ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Ömər Faiq Nemanzadənin 150 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 oktyabr 2022-ci il*

## Nazirlər Kabinetində Bakı şəhərində nəqliyyat sahəsinin vəziyyətinə həsr olunan işçi müşavirə keçirilib

Oktyabrın 3-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə nəqliyyat sahəsində mövcud vəziyyətə, problemlərin və qarşıda duran vəzifələrin həllinə həsr olunan işçi müşavirə keçirilib.





Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirədə aidiyyəti qurumların rəhbərlərinin məruzələri dinlənilib, paytaxtda yol-nəqliyyat sahəsində mövcud problemlər geniş müzakirə olunub, qarşıda duran vəzifələrin həlli ilə bağlı müvafiq tapşırıqlar verilib.

## *Leyla ABDULLAYEVA:* "Azərbaycan beynəlxalq öhdəliklərinə ciddi yanaşır"

"Ermənistandan fərqli olaraq Azərbaycan beynəlxalq öhdəliklərinə ciddi yanaşır və hərbi əməliyyatlar zamanı törədilmiş cinayətlərlə bağlı iddialar müvafiq dövlət orqanları tərəfindən araşdırılır".

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Leyla Abdullayeva tviter səhifəsində yazıb. "Lakin Ermənistan çoxsaylı hərbi cinayətlərə görə məsuliyyət daşıyanların məsuliyyətə cəlb edilməsi üçün hələ heç bir addım atmayıb", - L.Abdullayeva vurğulayıb.

## Laçın rayonunda tələ minaları aşkar edilib







Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) Təmizləmə Qrupları tərəfindən Laçın rayonunda minatəmizləmə əməliyyatları davam edir.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, Laçın rayonunun Zabux və Sus kəndlərində evlərin təmizlənməsi əməliyyatları zamanı düşmən tərəfindən quraşdırılan tələ minalarına rast gəlinib.

Evlərin və həyətyanı sahələrin girişinə quraşdırılan tələ məftili ilə işə düşən, eləcə də PMN-G Ermənistan istehsalı olan minaların altına əl qumbarası yerləşdirilməsi faktları aşkar olunub. Yüksək partlayışın baş verməsi məqsədilə partlayıcı qurğuları birləşdirməklə faciənin miqyasını böyütmək düşmənin insanlıq əleyhinə düşünülmüş xəyanətkar xislətidir. Bu kimi faktlar Ermənistanın regionda sülhə və təhlükəsizliyə, ətraf mühitə qarşı məkrli niyyətini davam etdirdiyinin göstəricisidir.

Tələ minalarının, ölüm ehtimalını artıran mina-sürprizlərin quraşdırılması Ermənistanın dövlət səviyyəsində mina terroru həyata keçirdiyini bir daha sübut edir.







# Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında ikitərəfli görüş keçirilib



Cenevrədə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında ikitərəfli görüş keçirilib.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüş bu il avqustun 31-də Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyan arasında Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin iştirakı ilə keçirilmiş görüşün nəticəsində xarici işlər nazirlərinə sülh müqaviləsinin mətninin hazırlanması barədə verilmiş tapşırığa uyğun olaraq təşkil edilib.

Nazir Ceyhun Bayramov səylərin postmünaqişə dövründə Azərbaycan ilə Ermənistan arasında dövlətlərarası münasibətlərin tənzimlənməsinə və sülh müqaviləsinin imzalanmasına yönəldilməsinin əhəmiyyətli olduğunu vurğulayıb. Nazir bu xüsusda tərəfimizdən təklif olunmuş beş baza prinsipi əsasında müqavilənin elementlərini detallı şəkildə Ermənistan tərəfinin diqqətinə çatdırıb.

Görüş zamanı delimitasiya olunmamış sərhəddə baş vermiş gərginliyi nəzərə alaraq, delimitasiya üzrə ikitərəfli komissiyanın növbəti iclasının əvvəlcədən razılaşdırıldığı kimi, cari ilin noyabrında deyil, oktyabr ayında keçirilməsi Azərbaycan tərəfindən təklif olunub.

Nazir Ceyhun Bayramov Azərbaycan, Ermənistan və Rusiya liderləri tərəfindən imzalanmış üçtərəfli bəyanatlara və liderlər arasında əldə edilmiş razılıqlara uyğun olaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən tam çıxarılmasının, Baş nazirlərin müavinlərinin rəhbərliyi ilə üçtərəfli komissiya çərçivəsində əldə olunmuş ilkin razılaşmalar əsasında nəqliyyat-kommunikasiya xətlərinin qısa müddətdə açılmasının, delimitasiya üzrə işdə irəliləyiş əldə edilməsinin zəruriliyini vurğulayıb.

Humanitar məsələlərə toxunan nazir, o cümlədən 4000-ə yaxın itkin düşmüş azərbaycanlının taleyinə aydınlıq gətirilməsinin vacibliyini, Ermənistan tərəfinin Azərbaycan ərazisində çoxsaylı faciəvi itkilərə səbəb olan minalar yerləşdirməkdə davam etməsinin qəbuledilməzliyini, bunun üçtərəfli Bəyanat üzrə Ermənistanın öhdəliklərinin kobud pozuntusu və hərbi cinayət olduğunu diqqətə çatdırıb.

Nazir Ceyhun Bayramov Azərbaycanın bölgədə sülh və sabitliyin təmin olunmasına sadiq olduğunu və sülh müqaviləsinin imzalanmasına hazırlığını bir daha ifadə edib. Bu istiqamətdə müzakirələrin davam etdirilməsinə dair razılıq əldə olunub.

# *Livia LEU:* "İsveçrə Azərbaycanla Ermənistan arasında sülh prosesinə töhfə verməyə hazırdır"

Oktyabrın 3-də Cenevrədə Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə İsveçrə Konfederasiyasının xarici işlər üzrə dövlət katibi Livia Leu arasında görüş olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı nazir Ceyhun Bayramov İsveçrə tərəfinə Ermənistan xarici işlər naziri ilə görüşə evsahibliyi etdiklərinə görə minnətdarlıq bildirib. Nazir görüşün nəticələri ilə bağlı öz təəssüratlarını İsveçrə tərəfi ilə bölüşüb. Səylərin postmünaqişə dövründə Azərbaycan və Ermənistan arasında dövlətlərarası münasibətlərin tənzimlənməsinə və sülh müqaviləsinin imzalanmasına yönəldilməsinin əhəmiyyəti vurğulanıb, bu istiqamətdə tərəfimizdən müqavilənin elementlərinin Ermənistan tərəfinə təqdim olunduğu qeyd edilib.

Bununla yanaşı, normallaşma prosesində mövcud çətinliklər, delimitasiya və kommunikasiya xətlərinin açılması məsələləri, habelə Ermənistan tərəfinin Azərbaycan ərazisində çoxsaylı faciəvi itkilərə səbəb olan minalar yerləşdirməkdə davam etməsi barədə qarşı tərəf məlumatlandırılıb. Dövlət katibi Livia Leu bölgədə normallaşma prosesinin davam etməsinin, hərbi toqquşmalardan çəkinməyin vacib olduğunu bildirib. İsveçrə tərəfinin neytrallıq prinsiplərinə əsaslanaraq Azərbaycanla Ermənistan arasında sülh prosesinə töhfə verməyə daim hazır olduğunu diqqətə çatdırıb.

Görüş zamanı gələcək danışıqların perspektivləri, habelə digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# *XİN:* "Ermənistandan hərbi cinayətlərə görə məsuliyyət daşıyan şəxslərin qanun qarşısında cavab verməsini tələb edirik"

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi Ermənistan XİN-in hərbi cinayətlərlə bağlı bəyanatını şərh edib.

AZƏRTAC XİN-in Mətbuat xidməti idarəsinə istinadla şərhi təqdim edir: "Ermənistan XİN-in 2022-ci il 2 oktyabr tarixli, Azərbaycan Silahlı Qüvvələri tərəfindən hərbi cinayətlərin törədildiyini iddia edən bəyanatı onilliklər ərzində təcavüzkar siyasət yürüdən, bir milyona yaxın insanın fundamental hüquqlarını tapdalayan, hərbi və mülki şəxslərə qarşı çoxsaylı hərbi cinayətlər törədən bir ölkənin riyakarlığının nümunəsidir.

Vurğulayırıq ki, Ermənistandan fərqli olaraq Azərbaycan öz beynəlxalq öhdəliklərinə ciddi yanaşır və hərbi əməliyyatlar zamanı törədilən cinayətlərlə bağlı iddialar müvafiq dövlət qurumları tərəfindən araşdırılır.

Belə ki, 2022-ci sentyabrın 17-də Azərbaycan Respublikasının Hərbi Prokurorluğu sosial şəbəkələrdə yayılan videoların həqiqi olub-olmaması, habelə videolardakı görüntülərin çəkildiyi zaman və məkan, onlarda əks olunan hərbi qulluqçuların şəxsiyyəti, eləcə də obyektiv həqiqətin müəyyən edilməsi üçün hərtərəfli araşdırmalara başlanıldığını bəyan edib.

Xatırladırıq ki, Ermənistan silahlı qüvvələri tərəfindən hələ Birinci Qarabağ müharibəsindən etibarən nəinki azərbaycanlı hərbçilərə, eləcə də mülki şəxslərə qarşı misli görünməmiş qırğınlar törədilib, yalnız bir gecədə 1992-ci il fevralın 26-da Xocalı şəhərində 613 mülki şəxs xüsusi qəddarlıqla qətlə yetirilib, bu günədək 4000-ə yaxın azərbaycanlının taleyi barədə heç bir məlumat verilməyib.

2020-ci ilin oktyabrında Azərbaycanın Gəncə, Bərdə, Mingəçevir şəhərlərinin mülki əhalisini raket hücumuna tutaraq insanlıq əleyhinə cinayətlər törədilib.

Ermənistanın səbəbkarı olduğu mina təhlükəsi bu gün bölgədə insanların həyatına ciddi hədədir. 2020-ci ilin noyabrından bu günədək əksəriyyəti mülki şəxs olmaqla 250-dək insan mina qurbanı olub. Azərbaycan ərazilərində aşkarlanan minaların 2021-ci ildə Ermənistanda istehsal olunması faktı isə Ermənistanın bir tərəfdən, mina xəritələrini hələ də tam olaraq Azərbaycana verməyərək, digər tərəfdən, yeni minalar basdırmaqla azərbaycanlılara qarşı hərbi cinayətlərini davam etdirdiyinin sübutudur.

Ermənistan hökuməti bu günədək törədilən hərbi cinayətlərin qarşısının alınması və ya törədilmiş cinayətlərə görə aidiyyəti şəxslərin məsuliyyətə cəlb edilməsi istiqamətində bu günədək heç bir əməli tədbir görməyib.

Ermənistanın əsassız iddialar yayaraq beynəlxalq ictimaiyyəti yanıltmaq və öz məsuliyyətini gizlətmək cəhdlərini qətiyyətlə qınayırıq.

Ermənistandan beynəlxalq öhdəliklərinə əməl etməyi və çoxsaylı hərbi cinayətlərə görə məsuliyyət daşıyan şəxslərin qanun qarşısında cavab verməsini tələb edirik".

# Azərbaycan ilə İsrail arasında hərbi əməkdaşlıq məsələləri müzakirə edilib






Oktyabrın 3-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan İsrail Dövlətinin müdafiə naziri Benyamin Qansın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, görüşdən əvvəl İsrailin nümayəndə heyəti Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirələrini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsi önünə əklil qoyublar. Sonra Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi keçirilib.

İsrailin müdafiə naziri fəxri qarovul dəstəsinin önündən keçib, hər iki ölkənin Dövlət himnləri səsləndirilib, protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.

General-polkovnik Z.Həsənov nitqində hər iki ölkə arasında tərəfdaşlığın yüksək səviyyədə olmasının təkcə dövlətlərimizin inkişafında deyil, həm də bütün regionda təhlükəsizliyin təmin edilməsində mühüm rol oynadığını qeyd edib.

İsrailin müdafiə naziri Benyamin Qans isə öz növbəsində hərbi əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini qeyd edərək bu cür görüşlərin keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Görüşdə Azərbaycan ilə İsrail arasında hərbi, hərbi-texniki sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, müxtəlif ixtisaslı hərbi mütəxəssislər səviyyəsində işçi görüşlərin təşkili, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# Azərbaycanın müdafiə naziri ilə İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi arasında telefon danışığı olub



Oktyabrın 3-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovla İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Məhəmməd Hüseyn Baqeri arasında telefon danışığı olub.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, tərəflər arasında ikitərəfli hərbi əməkdaşlıq, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# Azərbaycan Fransaya etiraz notası verib

Fransa səfiri Zakari Qros oktyabrın 3-də Azərbaycan Xarici İşlər Nazirliyinə dəvət edilib. Görüşdə oktyabrın 1-də Azərbaycanın Fransadakı səfirliyinə qarşı bu ölkədəki radikal erməni qrupları tərəfindən törədilən növbəti vandalizm aktı ilə bağlı etiraz notası diplomata təqdim edilib.

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə son zamanlar Azərbaycanın Fransanın ərazisində yerləşən diplomatik nümayəndəliklərinə qarşı bu ölkədə məskunlaşan radikal erməni qrupları tərəfindən törədilən hücumların sayının artdığı qeyd edilib. Növbəti belə bir hücumun oktyabrın 1-də gecə saatlarında baş verdiyi, bir qrup radikal erməni tərəfindən səfirliyin inzibati binasına qırmızı rəngli boya atıldığı və binanın üzərinə Azərbaycan əleyhinə təhqiramiz ifadələr yazıldığı müqabil tərəfin diqqətinə çatdırılıb. Qeyd olunan hadisənin Azərbaycan tərəfinin Fransanın səlahiyyətli qurumlarından səfirliyin və onun əməkdaşlarının mühafizəsinin təmin edilməsi ilə bağlı dəfələrlə müxtəlif səviyyələrdə ifadə edilmiş tələbləri fonunda Fransa hökuməti tərəfindən lazımi tədbirlərin görülməməsi nəticəsində baş verdiyi vurğulanıb.

Eyni zamanda qəbul edən dövlət olaraq Fransa hökuməti tərəfindən Azərbaycanın diplomatik nümayəndəliklərinin təhlükəsizliyinin lazımi səviyyədə təmin olunmamasının bu ölkə tərəfindən diplomatik əlaqələr haqqında 1961-ci il tarixli Vyana Konvensiyasından irəli gələn öhdəliklərin yerinə yetirilməməsi kimi dəyərləndirildiyi bildirilib. Fransanın səlahiyyətli qurumlarından bu ölkənin ərazisində yerləşən Azərbaycanın diplomatik nümayəndəliklərinin və Azərbaycan Mədəniyyət Mərkəzinin mühafizəsinin lazımi qaydada təşkil edilməsi, indiyə qədər törədilmiş zorakılıq aktlarının hərtərəfli araşdırılması və təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsi, səfirliyin inzibati binasına vurulmuş ziyanın aradan qaldırılması və müvafiq təzminatın ödənilməsinin təmin olunması tələb edilib.

Fransa səfiri Azərbaycan səfirliyinə qarşı baş verən hadisənin təəssüf doğurduğunu bildirib və Azərbaycan tərəfinin müraciətinin Fransanın səlahiyyətli orqanlarına çatdıracağını söyləyib.

# *ANAMA:* "Ötən ay ərzində 4064 hektardan çox ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib"

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən icra olunan əməliyyatlar barədə aylıq məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, sentyabrın 1-dən 30-dək Tərtər, Kəlbəcər, Ağdam, Xocalı, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 1695, tank əleyhinə 747 mina və 1363 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ay ərzində 4064,06 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# Bakıda "Qlobal hibrid müharibə və kibertəhlükəsizlik" Sammiti keçirilib

Oktyabrın 3-də Bakıda "Qlobal hibrid müharibə və kibertəhlükəsizlik" Sammiti keçirilib.

AZƏRTAC xəbər verir ki, "İnterProbe" şirkəti və Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası (AKTA) tərəfindən birgə təşkil olunan "Qlobal hibrid müharibə və kibertəhlükəsizlik" mövzusunda tədbir AKTA-ya üzv olan "Pnetworks" təşkilatının dəstəyi, Medianın İnkişafı Agentliyinin, "A2Z Technologies", "CyberPoint" şirkətlərinin tərəfdaşlığı ilə həyata keçirilib.

Sammit Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnlərinin səsləndirilməsi və şəhidlərin xatirəsinin birdəqiqəlik sükutla anılması ilə başlayıb.

Tədbirdə çıxış edən Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayev deyib: "Son illər ölkəmizdə kibertəhlükəsizlik sahəsində işlərin gücləndirilməsi üçün fəaliyyətlər həyata keçirilir. Dövlət başçısının diqqət və qayğısı nəticəsində bu sahə inkişaf edir. Kibertəhlükəsizlik mövzusunda keçirilən sammitin böyük əhəmiyyəti var. Son illərdə Azərbaycanda informasiya təhlükəsizliyi istiqamətində ciddi addımlar atılıb".

O qeyd edib ki, bu sahə üzrə universitetlərdə tələbələrin ilk buraxılışı olub. Vətən müharibəsində və sonrakı dövrdə erməni təxribatları da göstərir ki, kibertəhlükəsizlik sahəsini gücləndirmək zəruridir.

Yaxın zamanlarda iki vacib normativ-hüquqi aktın qəbulunun gözlənildiyini bildirən İlqar Musayev deyib: "Birincisi, Kritik informasiya infrastrukturunun təhlükəsizliyi ilə bağlıdır. Provayderlərdən lisenziya, əlavə ödəniş tələbi yığışdırılır və bu sahədə fəaliyyət sadələşdiriləcək. Xüsusi təhlükəsizlik tələbi müəyyənləşdiriləcək. İkincisi, Azərbaycan informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik strategiyasının təsdiqlənməsi gözlənilir. Burada kadrların hazırlanması və yaxın illərdə hansı işlərin görüləcəyi öz əksini tapacaq".

"BP" şirkətinin Xarici əlaqələr və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli çıxışında qeyd edib: "Bizim sahə təhlükəli və riskli sektorlardan biridir. Son zamanlar kibertəhlükəsizlik və əməyin təhlükəsizliyi gündəmdə olan mövzulardandır. Xəzər dənizində bizim 8 platformamız var. Bunlar qurudan idarə olunacaq. Platformalar rəqəmsal idarəetmə formatından hazırlanıb.

Biz 30 il fəaliyyət göstərən şirkət olaraq təhsil sahəsində də işlər görürük. Hazırda 3 universitetlə kibertəhlükəsizlik sahəsində əməkdaşlıq etmək istəyirik".

Kibertəhlükəsizlik Mərkəzinin rəisi Davud Rüstəmov bildirib ki, son illərdə kibertəhlükəsizlik sahəsində yeni təchizatların yaranması vacib əhəmiyyətə malikdir. Dövlət və özəl sektorlar arasında sıx əlaqələrin inkişafı bugünkü tədbirə çox gözəl bir nümunədir. Türkiyə, Azərbaycan və İsrail arasında olan əlaqələr kibertəhlükəsizlik sahəsini də əhatə edir.

Dövlət başçısı tərəfindən kritik informasiya infrastrukturlarının kibertəhlükəsizliyinə dair normativ-hüquqi aktların yaradılmasının ciddi tapşırıq kimi qarşıya qoyulduğunu diqqətə çatdıran Davud Rüstəmov deyib ki, yaxın vaxtlarda kritik informasiya infrastrukturları ilə bağlı qanun layihəsinin təsdiqlənməsi gözlənilir. Bu da həm hüquq, həm də kibertəhlükəsizlik tarixində yeni dövrün başlanğıcı olacaq.

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov isə çıxışında söyləyib: "Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin 44 günlük Vətən müharibəsində möhtəşəm qələbəyə imza atması bütün sahələrdə olduğu kimi, medianın da fəaliyyətində ruh yüksəkliyi yaradıb".

O qeyd edib ki, Vətən müharibəsində Azərbaycan Prezidentinin ölkəmiz haqqında həqiqətlərin dünyaya çatdırılması istiqamətində sosial şəbəkələrin və medianın potensialından peşəkarcasına istifadə etməsi düşmənin ölkəmiz ətrafında informasiya vakuumu yaratmasına imkan vermədi. Bu, jurnalistlər, ümumiyyətlə isə hər bir Azərbaycan vətəndaşı üçün dəyərli nümunədir. Məlumdur ki, İKT hər gün həyatımıza daha geniş daxil olur, müxtəlif sahələrdə qarşılıqlı əlaqəni asanlaşdırır. Bununla yanaşı, "virtual reallıq", eyni zamanda real həyatda mövcud olan mənfi elementlər: dələduzluq, cinayətkarlıq, zorakılıq halları virtual dünyaya da proyeksiyalanır və spamlar, viruslar, fərdi məlumatların ələ keçirilməsi, şantaj, kibercinayətkarlıq, kiberterrorizm kimi bütün dünyanın birgə mübarizə aparmaqla minimallaşdırılması mümkün olan təhdidlər yaranır".

Əhməd İsmayılov deyib ki, kiberfəzada sərhədlər və məhdudiyyətlər yoxdur, kibertəhdidlər istənilən yerdə baş verə və qısa müddət ərzində böyük ziyan vura bilərlər. Buna görə də İKT-nin istifadəsi zamanı inamın və təhlükəsizliyin yüksəldilməsi dünya ictimaiyyəti üçün ən aktual məsələlərdən birinə çevrilir.

"44 gün davam etmiş Vətən müharibəsi zamanı informasiyanın nə qədər böyük önəm daşıdığının bir daha şahidi olduq. 2020-ci il sentyabrın 27-də başlanmış hərbi əməliyyatlar Ermənistanın kapitulyasiyası ilə başa çatdı və Azərbaycan Silahlı Qüvvələri işğal edilmiş əzəli torpaqlarımızı düşməndən azad etdi.

İşğalçı üzərində qazanılmış zəfər xalqımızın hərb tarixinə qızıl hərflərlə yazılmış ən parlaq səhifələrdən biri kimi bizim və sonrakı nəsillərin iftixar mənbəyi olaraq qalacaq", - MEDİA-nın icraçı direktoru söyləyib.

İnformasiya müharibəsi, psixoloji qarşıdurma, hibrid müharibə kimi yeni termin və anlayışların ənənəvi müharibə barədə təsəvvürləri xeyli dəyişdirdiyini xüsusi vurğulayan Ə.İsmayılov bu gün xüsusi texnologiyaların köməyi ilə dövlətlərin ordusuna və əhalisinə təsir göstərmək imkanlarının mövcud olduğunu diqqətə çatdırıb.

Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının İdarə heyətinin sədri Rahid Ələkbərli sammitdə Türkiyədən, İsraildən, Almaniyadan və digər ölkələrdən nümayəndələrin iştirak etməsindən məmnunluq duyduqlarını bildirib.

O qeyd edib ki, həm media, universitetlər, özəl və dövlət sektorlarının əsas işi özünün təhlükəsizliyini təmin etməkdir.

Sammit işini panel iclasları ilə davam etdirib. Geniş dinləyici auditoriyasının diqqətini cəlb edən forumlar çərçivəsində "Dayanıqlı kibertəhlükəsizlik modelinin qurulması", "Maliyyə sahəsində rəqəmsal transformasiya və kiberrisklər", "Əvvəldən axıra təhlükəsizlik mümkündürmü?", "Kiberpotensialın gücləndirilməsi" və digər mövzularda müzakirələr aparılıb.

Konfrans çərçivəsində 600-ə yaxın ekspertin iştirakı ilə müxtəlif interaktiv sorğular keçirilib, kibergigiyena, kibermühit, sosial və idarəçilik təcrübələrinə aid sorğular xüsusi olaraq qiymətləndirilmiş və interaktiv iştirakçılar müxtəlif hədiyyələrlə mükafatlandırılıb.

Sammitdə kiberdünyada cərəyan edən hadisələr, ölkələrin kiberhazırlığı, kibertəhsil, kibergüclərin birgə fəaliyyəti, iqtisadiyyatın müxtəlif sahələrindəki kiberfəaliyyətlər və kiberpotensial idarəçiliyi sahəsindəki aktual məsələlər Azərbaycan, Türkiyə və İsrail kiberekspertləri ilə birgə müzakirə edilib.

Tədbirdə müzakirə olunan məsələlər üzrə gələcək fəaliyyətlərin Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası, ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutu, Türkiyənin "CyberThink" və Kiber Diplomatiya Assosiasiyası kimi düşüncə mərkəzlərində davam etdirilməsi qərarlaşdırılıb.



# Heydər Əliyev ili 2023



# Heydər Əliyev Azərbaycanda inkişaf və tərəqqi dövrünün əsasını qoydu

**Cəmiyyətdə mühüm siyasi prosesləri istiqamətləndirən, hadisələrin fövqündə dayanmaqla tarixi inkişafın gedişini əvvəlcədən müəyyənləşdirən fenomen siyasi liderlər ictimai inkişafın ən böhranlı, dönüş anında məsuliyyəti çiyinlərinə götürərək bütöv bir xalqın, millətin xilaskarına çevrilirlər.**

Taleyüklü məqamlarda bir daha təsdiqlənir ki, əsl siyasi lider daim öz cəsarəti, çevik və prinsipial qərarları, ən ağır vəziyyətlərdə optimal çıxış yolu tapmaq məharəti ilə seçilən parlaq şəxsiyyətdir. Ulu Öndər Heydər Əliyev zəngin siyasi fəaliyyəti dövründə üzləşdiyi bütün çətinlikləri, maneələri, problemləri mətinliklə dəf edən, inamlı qərarları ilə milyonlarla insanın taleyində müstəsna rol oynayan dahi şəxsiyyət, böyük dövlət adamı, qüdrətli siyasi xadimdir.

Hazırda biz Azərbaycan xalqının tarixində parlaq bir mərhələni yaşayırıq. Bu, XXI əsrdə ölkəmizin yeniləşməsi, möcüzə kimi davam edən intibah dövrüdür. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Ulu Öndər Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən ölkəmiz indi dahi şəxsiyyətin həyat amalının təntənəsinə çevrilmişdir.

Ümummilli Lider Heydər Əliyev xalqın taleyində nadir hadisə, fenomendir!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da 2023-cü ilin "Heydər Əliyev ili" elan olunması haqqında tarixi bir sərəncam imzalamışdır. Növbəti il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, böyük dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Sərəncamda dahi şəxsiyyətin dövlətçilik fəaliyyətinə misilsiz qiymət verilir, onun zəngin və çoxşaxəli irsinin xalqımızın milli sərvəti olduğu xüsusi vurğulanır. Heydər Əliyev xalqı tarixən can atdığı müstəqillik idealına qovuşdurmuş, mütərəqqi ənənələr əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürmüşdür. Yalnız bir yolla - bütöv və tam həqiqətin yolu ilə gedən və yüksək uğurlar qazanan qüdrətli siyasi xadimin dövlətçilik fəaliyyəti ölçüyəgəlməz dərəcədə böyükdür. Reallıq və həqiqət böyüklük və qüvvət əlamətidir. Öz təbiəti etibarilə cəmiyyəti həmişə irəli aparan, qabaqcıl və mütərəqqi qüvvələrə arxa-dayaq olan, sabahkı gün, insanların xoş gələcəyi, gözəl arzular və xəyallar haqqında düşünən, onları reallığa çevirən bir şəxsiyyətin həyat amalı ancaq həqiqət konsepsiyasına bağlıdır. Zaman ötdükcə, illər keçdikcə bir çox meyarlar, prinsiplər dəyişir, ancaq həqiqətin meyarı dəyişməz olaraq qalır.

## Fenomen şəxsiyyət

1969-cu il iyulun 14-də Heydər Əliyevin respublikanın rəhbəri vəzifəsində fəaliyyətə başlamasının ilk günlərindən aydın oldu ki, dahi şəxsiyyətin simasında Azərbaycan xalqı əsl milli liderini tapmışdır.

Ulu Öndər həm birinci, həm də ikinci dəfə ölkənin ən ağır vaxtlarında - ictimai münasibətlərin kəskin şəkildə gərginləşdiyi, dövlət idarəçiliyinin fundamental əsaslarının dağıldığı, cəmiyyətin zehnində dolaşıqlıq və mənəvi dayaqlarında hərc-mərclik yarandığı dövrlərdə rəhbərliyə gəlmiş və respublikanı nəinki düşdüyü vəziyyətdən çıxara bilmiş, habelə qısa vaxtda onun sürətli inkişafına nail olmuşdur. Heydər Əliyev ölkə rəhbərliyinə gəlişi ilə cəmiyyətə ədalət gətirmişdir. Haqqın gücünə insanların sönmüş inamını bərpa etmişdir. İlk növbədə respublikada sağlam milli kadr bazasının yaradılmasına nail olmuşdur.

1970-1980-ci illərdə azərbaycanlılar üçün çətinlik törədən amillərdən biri sovet Azərbaycanının partiya və inzibati orqanlarında kök salmış kosmopolit kadrların olması idi. Xüsusilə o zaman Bakıda yaşayan ermənilər hakimiyyətin əksər pillələrində təmsil olunur və bütün qüvvələrini milli kadrların yerləşdirilməsinin qarşısını almağa yönəldirdilər. Rəhbərliyə gəlməmişdən əvvəl DTK orqanlarında durmadan yüksələn və yüksəldikcə də Azərbaycan milli elitası ilə güclü əlaqələr yaradan böyük vətənpərvərin qarşısıalınmaz qətiyyəti erməniləri qorxuya salırdı.

Ümummilli Lider uzaqgörən və məqsədli siyasi xətt yeridərək birinci növbədə milli kadrların yüksəlişinə nail oldu və rəhbər vəzifələrdən erməniləri uzaqlaşdırdı. Heydər Əliyev siyasətinin başlıca məramı güclü dövlət, güclü iqtisadiyyatla yanaşı, sağlam milli kadrlar yetişdirmək idi. Ona görə də ölkə rəhbəri milli təhsilin səviyyəsini və keyfiyyətini yüksəltmək üçün fəal təhsil və kadr konsepsiyasını irəli sürdü. Təhsildə islahatlar dönüş xarakteri aldı. Ötən əsrin 70-ci illərinin ortalarında artıq bu mühüm vəzifələr yerinə yetirildi.

Ulu Öndər ana dilində danışan ilk rəhbər idi. Böyük siyasi xadimin hələ ötən əsrdə Azərbaycana birinci katib seçiləndən bəri yeritdiyi dil siyasəti bir məqsədə xidmət etmişdir: ana dilini inkişaf etdirmək, onun dövlət statusunu reallaşdırmaq, dünya dilləri içərisində nüfuzunu artırmaq. Müstəqillik illərində isə - 1995-ci ildə Konstitusiya Komissiyasının sədri olan Heydər Əliyev layihədə dövlət dilinin adı ilə bağlı geniş müzakirələr keçirdi. 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi tədbirləri haqqında" fərman imzaladı. 2003-cü ildə "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanun qüvvəyə mindi.

Güclü respublika, güclü iqtisadiyyat konsepsiyasından çıxış edən Ulu Öndər qısa zamanda dünyanın ən iri müəssisələrinin Bakıda tikintisinə nail oldu. Sovetlər birliyinin mərkəzi dövlət və təsərrüfat orqanlarından respublika üçün çox böyük vəsaitlər ayrılmasına çalışdı.

Azərbaycan Prezidenti İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubiley mərasimindəki çıxışında Ulu Öndərin sovet dövründəki xidmətlərini qeyd edərək demişdir: "Məhz onun rəhbərliyi ilə sovet dövründə Azərbaycan müttəfiq respublikalar arasında ən geridə qalmış yerdən ən qabaqcıl yerlərə qədər yüksəldi. O vaxt, - gənclər təbii ki, bunu bilmirlər, - respublikaları fərqləndirən bir neçə əlamət var idi. Onların arasında keçici "Qırmızı bayraq" var idi. Yəni "Qırmızı bayraq" ilə o respublikalar təltif olunurdu ki, orada həm sənayedə, həm kənd təsərrüfatında, həm də bütün digər sahələrdə böyük uğurlar var idi. Bax Heydər Əliyevin dövründə 13 il ərzində Azərbaycan hər il bu "Qırmızı bayrağ"ı alırdı. Bu, bir daha onu təsdiq edirdi ki, onun rəhbərliyi ilə Azərbaycan böyük uğurlu yol keçmişdir".

Qəlbi daim Vətən sevgisinin gücü ilə döyünən böyük rəhbər milli-mənəvi dəyərlərimizin qorunmasına, Azərbaycanın elmi potensialının inkişafına xüsusi diqqət göstərirdi. Ulu Öndər Azərbaycanın ziyalılarını sovet rəhbərliyinin təzyiqlərindən qətiyyətlə müdafiə etməyə, onların sıxışdırılmasının qarşısını almağa müvəffəq olmuşdu.

Bu, bir cəsarət nümunəsi idi! Heydər Əliyev bu nümunəni tarixin başqa anlarında da təkrar-təkrar nümayiş etdirdi. Milli ruhun daşıyıcısı olan ziyalılarımızı təzyiq və təqiblərdən qoruyanda da, bu ruhu əks etdirən əsərlərə himayədarlıq edib onlara həyat qazandıranda da, keçmiş SSRİ-nin ali rəhbərlərindən biri kimi Kremldə çalışdığı illərdə də Azərbaycan və ümumilikdə müsəlman ölkələri ilə bağlı göstərdiyi təəssübkeşlikdə, prinsipiallıqda da...

Qüdrətli dövlət adamının elan etdiyi prinsip və ideyalar ötən əsrin 70-ci illərində respublikada tərəqqinin və intibahın başlıca istiqamətlərini müəyyənləşdirmişdir.

## Müasir Azərbaycanın qurucusu

1993-cü ilin iyununda Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycanda yeni dəyərlər sisteminin və yeni ideyaların meydana çıxmasına stimul yaratdı. Bu dəyərlər və ideyalar müstəqil Azərbaycan dövlətinin təməl prinsiplərini müəyyənləşdirən baxışlar sistemi kimi nəzərdən keçirilirdi. Ümummilli Lider uçurumun bir addımlığında dayanan millətin öz dövlətini yaşatmasını təmin etmək üçün milli dövlətçilik ideologiyasının ictimai şüurda möhkəmlənməsinə nail oldu, bununla da cəmiyyəti ümumi bir məqsəd ətrafında birləşdirdi. Heydər Əliyev ölkəni iflasdan, fəlakətdən qurtardı, onu xain əllərdən, çevriliş, qiyam cəhdlərindən hifz etdi. Bu qayıdış əsrlərin sınağından keçə-keçə min bir əziyyətlə məqsədinə doğru addımlayan bir millətin özünə qayıdışına çevrildi və Azərbaycan müstəqillik tarixinin daha şərəfli, əzəmətli mərhələsinə qədəm qoydu.

Ulu Öndərin müdrik fəaliyyəti ilə cəmiyyətdə özünəinam hissi bərpa edildi, sabitlik və firavanlığa ciddi təminat yaradıldı. Azərbaycanın sosial-iqtisadi və diplomatik sahədə üzləşdiyi bir çox problemlərin həlli məhz Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonrakı mərhələdə mümkün oldu. Böyük siyasi xadimin irəli sürdüyü dövlətçilik konsepsiyası mahiyyət etibarilə Azərbaycanın tarixi ənənələrini və müasir Avropa dəyərlərini özündə birləşdirən yeni bir inkişaf modeli kimi özünü doğrultdu. Heydər Əliyev cəmiyyətdə dayanıqlı milli birliyə nail olmaq üçün hər şeydən öncə, insan hüquq və azadlıqlarının maksimum təminatı məsələsinə xüsusi diqqət yetirdi. Özünəməxsus müdrikliklə bəyan etdi ki, siyasi sabitlik yaratmadan yeni idarəetmə sisteminə keçidi reallaşdırmaq, demokratiya kimi fundamental prinsiplərin tətbiqinə nail olmaq mümkün deyil.

Ulu Öndər Heydər Əliyev cəmiyyətin sivil inkişafını hər bir fərdin maraq və mənafelərinin etibarlı təminatında görərək bunun üçün bütün zəruri tədbirləri reallaşdırdı. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirdi, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxardı.

Ümummilli Lider yeni neft strategiyasının işlənib hazırlanmasına və uğurla həyata keçirilməsinə nail oldu. 1994-cü il sentyabrın 20-də Bakıda dünyanın 11 transmilli neft şirkətinin iştirakı ilə çağdaş tariximizə "Əsrin müqaviləsi" adı ilə düşmüş qlobal neft müqaviləsinin təntənəli imzalanma mərasimi keçirildi.

Elmin, təhsilin inkişafı, milli-mənəvi dəyərlərə həssas münasibət bütün dövrlərdə Ulu Öndərin fəaliyyətinin əsas istiqamətini təşkil etmişdir. Bu illərdə elmi intellektual sferada hökm sürən tənəzzülün qarşısı alındı, təhsilin öz məcrasına düşməsi üçün əlverişli iqtisadi şərait, hüquqi və mənəvi-əxlaqi mühit formalaşdı. Sağlam təfəkkürlü insanları öz ətrafında topladı, Azərbaycanın elmi potensialının dağılmasının qarşısını aldı.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda aparılan hüquqi və demokratik islahatlar ilk növbədə qanunun aliliyinə əsaslanan ictimai münasibətlər sisteminin formalaşmasına gətirib çıxardı, ölkədə dövlət quruculuğu prosesini uğurla həyata keçirməyə şərait yaratdı. Sosial həyatın ayrı-ayrı sahələrini tənzimləyən qanunların qəbulu, aparılan tədbirlər, görülən işlər cəmiyyətin təhlükəsizliyinin təmin olunmasında, Azərbaycanın modern bir dövlət olaraq beynəlxalq aləmdə tanınmasında müstəsna rol oynadı. Böyük rəhbərin dövlətçilik ideyaları həm də xalqımızın tarixi ənənələrinə, milli-mənəvi dəyərlərinə söykənirdi.

Ümummilli Lider Azərbaycanda iki sivilizasiyanın konseptual paramentrlərini özündə təkmil bir formada birləşdirən unikal bir dövlət modeli yaratmışdı. Məhz bu model Azərbaycanı dünyanın ən inkişaf etmiş dövlətlərinin strateji tərəfdaşına çevrilməsində, Cənubi Qafqazın nüfuzlu ölkəsi kimi tanınmasında və nəhəng uğurlara imza atmasında həlledici təsirə malik olmuşdur.

Heydər Əliyev Azərbaycanın istiqlalını əbədi etmiş qüdrətli liderdir!

Ulu Öndər qarşıya qoyduğu ali məqsədlərə doğru irəliləyərkən ən böyük dəstəyi xalqdan almışdır. Bu isə müstəqil Azərbaycan dövlətinin qurucusu, dahi şəxsiyyət Heydər Əliyevə Ümummilli Liderlik zirvəsini fəth etmək imkanı vermişdir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Xilaskar lider

2023-cü ildə anadan olmasının 100 illiyini böyük təntənə ilə qeyd edəcəyimiz Ümummilli Lider Heydər Əliyev vətəninə ürəkdən bağlı olan nadir şəxsiyyətlərdəndir. Belə şəxsiyyətlər tarixin ən çətin və keşməkeşli dövrlərində xalqın tarixi-siyasi tələbatından və genetik potensialından yaranır. Fəaliyyətinin hər dövründə zamanı əməlləri ilə zənginləşdirən Ulu Öndərin ən müqəddəs istəyi xalqın birliyinə, dünya azərbaycanlılarının həmrəyliyinə söykənən güclü, müstəqil və müasir Azərbaycan dövlətinin yaradılması olmuşdur.

Heydər Əliyev həsəd aparılacaq bir ömür yaşayıb...

1969-cu il iyulun 14-də Azərbaycanın siyasi səhnəsində sözün əsl mənasında, parlaq şəxsiyyət göründü. Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildi, ilk dəfə ölkəmizdə hakimiyyət sükanına xalqının taleyinə tam sahib çıxmaq bacarığına malik rəhbər gəldi. 1969-cu ildə keçirilən məşhur avqust plenumu Azərbaycanın həyatında mühüm və şərəfli bir mərhələnin başlanğıcını qoydu. 1969-1982-ci illər respublikamızda quruculuq salnaməsinin parlaq dövrü kimi tarixə düşdü. Ümummilli Lider hələ sovetlər dönəmində böyük uzaqgörənlik və müdrikcəsinə Azərbaycanın gələcək müstəqilliyinə hərtərəfli zəmin yaratdı. Bu danılmaz həqiqətin mahiyyətinə qədərincə varmaq üçün insanda yalnız və yalnız heyrət doğuran faktların təkcə bir qisminə diqqət yetirmək kifayətdir. Azərbaycanda dövlətçilik ənənələrinin XX əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyevin səmərəli fəaliyyəti sayəsində mümkün olmuşdur. Ulu Öndər ölkəyə müdrik rəhbərliyi, siyasi uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə zəmanəmizin görkəmli siyasi xadimi kimi tanınmış, Azərbaycan xalqının Ümummilli Liderinə çevrilmişdir. Azərbaycan ziyalısını keçən yüzilliklərdə ən ciddi şəkildə düşündürən milli dirçəliş Heydər Əliyevin fəaliyyəti ilə strateji dövlət siyasəti müstəvisinə keçmişdir. Azərbaycanın hərtərəfli inkişafı üçün Ulu Öndərin hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil Azərbaycan dövlətinin gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması işinə xidmət edəcəkdir.

Azərbaycanın müasir dövlətçiliyi tarixində müstəqillik dövrünün arxada qalan hər ilinin öz yeri var. Müstəqil Azərbaycanın keçdiyi sınaqlar, dövlətçiliyimizin ən ağır günlərində Heydər Əliyev qətiyyəti və müdrikliyi xalqımızı və ölkəmizi çətin durumdan həmişə xilas etmişdir. Ulu Öndər Heydər Əliyev demişdir: "Ağıl olan yerdə zora ehtiyac yoxdur. Tarix həmişə hər şeyi öz yerinə qoyur". Heydər Əliyevin dövlət və xalq qarşısındakı tarixi xidmətlərini heç kim inkar edə bilməz. Onun ölkədə vətəndaş həmrəyliyinə nail olunması, sabitlik yaradılması, müstəqil dövlətimizin möhkəmlənməsi, iqtisadi-sosial sahədə, neft strategiyasında tarixi addımlar atılması, bütün sahələrdə mühüm islahatlar həyata keçirilməsi, beynəlxalq aləmdə respublikanın mövqeyinin gücləndirilməsi sahəsində gördüyü işlər unudulmazdır. Ulu Öndər ölkədə bazar iqtisadiyyatının təşəkkül tapmasında, Azərbaycana xarici investisiyaların cəlb olunmasında, beynəlxalq iqtisadi əlaqələrin genişləndirilməsində, xalqın rifah halının yüksəldilməsində çox böyük işlər görmüşdür. Məhz Heydər Əliyevin sayəsində respublikada dinamik iqtisadi inkişafa zəmin yaranmışdır. Bu siyasi kursu layiqincə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz daha da inkişaf etmiş və sivil dövlətlər sırasına çatmışdır. Ümumiyyətlə, siyasi, iqtisadi, sosial, mədəni həyatda, ordu quruculuğunda, beynəlxalq sahədə, bir sözlə, dövlətçiliyin gücləndirilməsində, ölkənin tərəqqisində nə qədər yeniliklər, uğurlar əldə edilmişdirsə, bunların hamısı Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində mümkün olmuşdur. Artıq fəxrlə deyə bilərik ki, Azərbaycan möhkəm və qüdrətli dövlətə çevrilib. Bu böyük şəxsiyyətlərin reallaşdırdıqları inkişaf konsepsiyası sayəsində əldə olunan uğurlar ölkəmizin nurlu sabahının təminatçısıdır.

Heydər Əliyev Azərbaycan həqiqətlərini qətiyyətlə bütün dünyaya tanıda bilmişdir. Dünya siyasət meydanında cərəyan edən proseslərə təsir baxımından Azərbaycan rəhbəri həmişə öz sözü, qətiyyətli mövqeyi ilə seçilmişdir. Heydər Əliyevin siyasi əzmkarlığı xalqı yaradıcılıq uğurlarına ruhlandırmışdır. 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev idarəetmə təcrübəsi və müdrikliyi ilə Azərbaycanı təhlükəli vəziyyətdən çıxarmağa nail oldu. İlk növbədə hakimiyyət boşluğu aradan qaldırıldı, respublikanın müxtəlif bölgələrində baş qaldırmış destruktiv qüvvələr xalqın fəal köməyi ilə zərərsizləşdirildi, vətəndaş müharibəsinin qarşısı alındı. Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə qəsdlər təşkil edən cinayətkar ünsürlər cəmiyyətdən təcrid edildi. 1994-cü ilin mayında Ermənistan-Azərbaycan müharibəsində atəşkəsə nail olundu. Heydər Əliyev Azərbaycan həqiqətlərini, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini dünya ictimaiyyətinə çatdıra bildi. Azərbaycanlıları dünyaya sivil dəyərlərin daşıyıcısı kimi tanıdan, dünya azərbaycanlılarını vətənə bağlayan azərbaycançılıq fəlsəfəsinin əsasları yarandı. Heydər Əliyev sübut etdi ki, siyasət naşıların zənn etdiyi kimi asan məsələ deyil. Hətta ən keşməkeşli zamanlarda belə, Azərbaycan xalqının müstəqil olmaq hüququnu təmin edə bilmək böyük ustalıqdır. Ölkəsinin taleyüklü problemlərinin həllində, müqəddəs milli vəzifələrin uğurla həyata keçirilməsində, beynəlxalq ictimai rəydə, vətənimizin daha böyük uğurlar qazanmasında xalqımızın böyük oğlu Heydər Əliyevin misilsiz xidmətləri təsdiqlənmişdir. İnamla demək olar ki, Heydər Əliyevin həyat yolu, idarəetmə bacarığı, siyasi peşəkarlığı və yenilməz iradəsi məhz bu vəzifələrin yerinə yetirilməsində başlıca təminat olmuşdur. Hər kəsə yaxşı məlumdur ki, Azərbaycanın daxili çəkişmələri, vətəndaş qarşıdurmasını və etnik toqquşmalar içərisində boğulmasını nəzərdə tutan məkrli planlar məhz Heydər Əliyev fenomeni sayəsində həyata keçməmişdir.

Ulu Öndərin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində gerçəkləşdirdiyi ideyalar artıq bugünkü Azərbaycanın reallığına çevrilmişdir. Onun fəaliyyəti də, şəxsiyyəti də tariximizin ayrılmaz hissəsini təşkil edir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi vardır. Heydər Əliyev zəngin tarixə malik bir xalqın özünütəsdiqi üçün zəruri olan milli-mədəni məkanda yaşamaq imkanını reallaşdırıb. Nəticədə milli dövlətçilik təfəkkürünə yiyələnən, ölkənin bu günü və sabahı üçün məsuliyyət hissi ilə yaşayan azərbaycanlı vətəndaşın obrazı, dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi dövlətin fəaliyyətinin mühüm istiqamətlərindən biri olmuşdur.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu



# Azad edilən ilk şəhər

## 27 illik Cəbrayıl həsrətinə 8 gündə son qoyuldu

*Əvvəli 1-ci səh.*

1994-cü il 5 yanvarda Horadiz əməliyyatı zamanı rayonun Cocuq Mərcanlı kəndi də işğaldan azad edilib. Lakin ətrafdakı yüksəkliklərdə düşmən qüvvələri olduğu üçün kənddə yaşayış mümkün olmayıb. 2016-cı il Aprel döyüşlərində Azərbaycan Ordusunun əks-hücumu nəticəsində Lələtəpə yüksəkliyi düşməndən təmizləndikdən sonra Cocuq Mərcanlı kəndi ordumuzun nəzarətinə keçib. Aprel zəfərindən sonra Azərbaycan dövləti Cocuq Mərcanlıda yenidənqurma işlərinə start verib və tezliklə bu kənddə həyat yenidən qaynayıb, illər sonra kəndin sakinlərinin torpaq, yurd həsrəti bitib. Cocuq Mərcanlı Böyük qayıdışın ilk qaranquşu kimi tarixə düşüb.

### İşğaldan azad olunmuş əraziyə ilk səfər

Azərbaycanın Vətən müharibəsində tarixi qələbəsindən, məğlub Ermənistanın kapitulyasiya aktını imzalamasından 6 gün sonra - 2020-ci il noyabrın 16-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilən ərazilərə ilk səfəri oldu. Prezident Cəbrayıl şəhərində və Xudafərin körpüsündə üçrəngli Azərbaycan bayrağını qaldırdı.

İşğaldan azad olunan ilk ərazilərə - Füzuli və Cəbrayıla səfər edən dövlət başçısı Şuşa şəhərinə yol çəkilişi ilə bağlı elə həmin gün göstəriş verdi. Bununla da Zəfər yolunun başlanğıcı qoyuldu.

Torpaqlarımız işğaldan azad olunduqdan sonra minatəmizləmə əməliyyatları həyata keçirildikcə, Prezidentin tapşırığı ilə həmin ərazilərdə yenidənqurma və bərpa işlərinə başlanıldı. Dövlət başçısının birbaşa nəzarəti altında həyata keçirilən işlər sürətlə davam etdirildi. İlham Əliyev mütəmadi olaraq işğaldan azad olunmuş ərazilərə səfərlər edir, görülən işlərlə yerində tanış olur və təməlqoyma mərasimlərində iştirak edir.

### Yenidənqurma və bərpa işləri

Cəbrayılın işğaldan azad olunmasının ilk ilində Prezident İlham Əliyev rayona səfər edərək təməlqoyma tədbirlərində iştirak etdi. Belə ki, həmin gün Cəbrayılda "KAMaz" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin, Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının, Cəbrayıl rayon Mərkəzi Xəstəxanasının, məktəb binasının və Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin əsası qoyuldu.

Ölkə rəhbəri eyni zamanda 110/35/10 kV-luq "Cəbrayıl" yarımstansiyası, Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışında iştirak etdi. Daha sonra Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşən Prezident çıxışında qeyd etdi ki, oktyabrın 4-ü tariximizdə əbədi qalacaq, çünki həmin gün Cəbrayıl şəhəri işğalçılardan azad edilib və bu qələbənin çox böyük mənası var: "Çünki ilk dəfə olaraq müharibənin birinci həftəsində şəhər, rayon mərkəzi azad edilmişdi. Bunun çox böyük rəmzi mənası var idi. Bu, bizim ordumuza əlavə güc verdi, inam verdi. Bu qələbədən sonra bizim şanlı ordumuz öz tarixi missiyasını digər yerlərdə də icra etmişdir. Cəbrayıllılar yaxşı bilirlər ki, müharibənin ilk günündə Cəbrayılın iki kəndi işğalçılardan azad edilmişdir - Böyük Mərcanlı və Nüzgar kəndləri, Füzuli rayonunun 4 kəndi bizim birinci uğurumuz idi".

Cəbrayıl əməliyyatının əhəmiyyətindən söz açan dövlət başçısı dedi ki, Cəbrayıl azad olunandan sonra işğal altında olan digər rayonlara uğurlu addımlarımız mümkün olub. Cəbrayıldan sonra Zəngilan, ondan sonra Qubadlı və Laçın rayonunun cənub hissəsi işğalçılardan azad edilib. Beləliklə, Azərbaycan Ordusu Laçın dəhlizini tam nəzarətə götürə bilib.

Prezident həmçinin Aprel döyüşlərini xatırladaraq qeyd edib ki, Cəbrayılın azad olunması beş il bundan əvvəl başlayıb: "Aprel döyüşləri nəticəsində Cocuq Mərcanlı kəndinə insanları qaytarmaq üçün imkanlar əldə edildi. Strateji yüksəkliklər işğalçılardan azad olunandan sonra Cocuq Mərcanlıya həyatın qayıtması artıq mümkün olmuşdur və bu, bizim önəmli qələbəmiz idi. Çünki bu, uzun fasilədən, atəşkəsdən sonra ilk böyük qələbəmiz idi".

### Zəfərdən sonra...

Torpaqlarımızın düşmən tapdağından azad olunması istiqamətində ilk döyüşlərin getdiyi, düşmənin qurduğu istehkam və mövqelərin güclü olduğu ərazilərdən idi Cəbrayıl. 2016-cı il Aprel döyüşlərini unutmayan düşmən burada daha yaxşı möhkəmlənmişdi.

Cəbrayılın azad olunması uğrunda da canından belə keçməyə hazır olan oğullar az deyildi. Zəfərdən sonra Vətən müharibəsi ilə əlaqədar təsis edilən orden və medallar sırasında "Cəbrayılın azad olunmasına görə" medalı da xüsusi yer tuturdu. Dövlət başçısı tərəfindən bu yolda canı, qanı bahasına döyüşərək şəhadətə yüksələnlər, həmçinin qazilərimiz də mükafatlandırıldı.

Prezident İlham Əliyevin 2020-ci il dekabrın 24-də və 2021-ci il iyunun 24-də imzaladığı müvafiq sərəncamlara əsasən, rayonun işğaldan azad olunması uğrunda aparılan döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirən 12523 hərbi qulluqçu "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif olundu.




### Azərbaycan öz məqsədlərinə doğru irəliləyir

Milli Məclisin deputatı Ceyhun Məmmədov Vətən müharibəsini xatırladaraq qeyd edir ki, iki il öncə sentyabrın 27-də Ermənistan Azərbaycana qarşı yenidən təxribatlara başladı və Azərbaycan Ordusu bu təxribatların qarşısını qətiyyətlə alaraq, öz qələbəsini təmin etdi. Deputat bildirir ki, işğaldan azad olunan ilk ərazilər arasında Cəbrayıl şəhəri və rayonun kəndləri də var idi. Hər bir cəbrayıllı həmin günü yaxşı xatırlayır. Cənab Prezident Azərbaycan xalqına bu barədə xoş müjdə verdi.

Ceyhun Məmmədov deyir ki, bu tarixə qədər hər il avqustun 23-nü Cəbrayılın işğalı günü, indi isə oktyabrın 4-nü Cəbrayılın işğaldan azad olunması günü kimi qeyd edirik: "Çox möhtəşəm hisslərdir, böyük uğurdur. Son 250-300 ildə ilk dəfə itirilmiş torpaqlarımızı azad etdik. Azərbaycan xalqı möhtəşəm qələbəsini təmin edərək yeni mərhələyə daxil oldu. Həmin günlər Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb".

Deputat təəssüflə qeyd edir ki, ermənilər 30 ilə yaxın müddətdə işğalda saxladıqları bu əraziləri vəhşicəsinə dağıdıblar: "Amma biz əminik ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu ərazilər qısa müddətdə bərpa ediləcək. İşğaldan azad olunan torpaqlarımızda artıq böyük quruculuq işlərinə başlanılıb. Cəbrayılda bir sıra yeni müəssisələrin - məktəb, xəstəxana, sənaye parkının əsası qoyulub. Bütün bunlar onu söyləməyə əsas verir ki, Azərbaycan öz məqsədlərinə doğru irəliləyir".

Deputatın sözlərinə görə, ermənilər bu illər ərzində rayonu barbarcasına dağıdıb, evləri, məscidləri, bütün infrastrukturu məhv edib. Hətta zəfərdən sonra öz evlərini tapa bilməyən Ceyhun Məmmədov vurğulayır ki, birlikdə o torpaqları qısa müddətdə ən yüksək səviyyədə təmir və bərpa edəcəyik: "Bu gün qarşımızda ciddi vəzifələr durur. Qələbəni qorumaq onu əldə etmək qədər çətindir. Biz əminik ki, bu uğurlara mütləq nail olacağıq və xalqımız hər zaman bu istiqamətdə səylərini davam etdirəcək. Bu gün cəbrayıllılar da ölkə rəhbəri, ordumuz ətrafında sıx birləşərək öz məqsədlərinə doğru irəliləyirlər və əminik ki, qarşımızdakı vəzifələrin öhdəsindən layiqincə gəlməyi bacaracağıq".

### Cəbrayılın azad edilməsindən sonra daha da qorxuya düşən düşmən

Hərbi ekspert, ehtiyatda olan polkovnik Şair Ramaldanov bildirir ki, İkinci Qarabağ savaşı zamanı böyük sevinc gətirən, ilk işğaldan azad edilmiş iri şəhərlərdən biri Cəbrayıldır. Azərbaycan Ordusu şimal və mərkəzdən əks-hücum əməliyyatına keçsə də, döyüşlərin inkişaf istiqaməti cənub bölgəmiz - Cəbrayıl, Zəngilan olub: "Bu istiqamət bizim üçün daha uğurlu idi. Hər bir döyüşün əhəmiyyəti böyükdür, çünki Azərbaycan Ordusunun Vətən müharibəsi əməliyyatlarını bir-birindən ayırmaq olmaz, bunlar zəncirvari, bir-birinə təsir edən, bağlı olan döyüşlərdir. Şimal və mərkəz istiqamətində gedən döyüşlər düşmənin ehtiyat qüvvələrinin böyük hissəsini burada saxlamaqla, Cəbrayıl şəhərinin və ətrafdakı yaşayış məntəqələrinin azad edilməsində mühüm rol oynadı. Digər tərəfdən Cəbrayıl rayonunun və Hadrutun azad edilməsi Şuşaya açılan qapı idi. Məhz bu istiqamətdə gedən döyüşlərin əhəmiyyəti həddindən çox idi".

Ekspert deyir ki, Cəbrayılın azad edilməsi Azərbaycan Ordusunu döyüşləri daha da geniş, istiqamətləndirilmiş şəkildə inkişaf etdirməyə kömək etdi: "Düzənlik ərazi olduğundan texnikaların o istiqamətdə sürətlə irəliləməsi, ərazi baxımından əlverişli mövqelərin ələ keçirilməsinin növbəti döyüşlərin aparılmasına müsbət təsiri danılmazdır. Cəbrayıl şəhərinin azad edilməsi bizim üçün psixoloji dəstək kimi qəbul olunmalıdır, çünki 30 il işğal altında qalan torpağın, böyük şəhərin ilk olaraq azad edilməsi döyüşdə olan hərbçiləri daha da ruhlandırdı, onların inamını artırdı".

Ş.Ramaldanov bildirir ki, Cəbrayılın azad edilməsindən sonra düşmən tərəfdə fərarilik halları artıb. Onlar döyüş mövqelərini atıb qaçmağa başlayıblar. Ermənistanda elan olunan səfərbərlik də demək olar ki, heç bir nəticə verməyib.

O qeyd edir ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev həm siyasi arenada, həm də sərkərdə kimi öz məharətini göstərdi. Çünki bütün qərarları Ali Baş Komandan verirdi: "Bütün istiqamətlər təhlil edilərək verilən doğru qərarların Azərbaycan Ordusu tərəfindən praktiki yerinə yetirilməsi onu göstərir ki, Ali Baş Komandan müharibəni məharətlə idarə edərək bizi qələbəyə gətirib çıxartdı. Hər şey mərkəzdən idarə olunur, əgər mərkəzdən yanlış qərarlar verilərdisə, qələbəni belə qısa zamanda qazana bilməzdik. Düzgün təhlillər, komanda mərkəzində qəbul olunmuş doğru qərarlar orduya üstünlüyü həmişə saxlayaraq düşməni qovmağa, darmadağın etməyə imkan verdi. Ordunun müasir silahlarla təchiz olunması da burada böyük rol oynadı. Ona görə ki, müasir silahlar hələ yaxın təmasda olmadan düşmənin bütün istiqamətlərdə texnika və hədəflərini darmadağın edərək, şəxsi heyət arasında itkilərin minimuma endirilməsinə kömək etdi. Proqnozlara görə, itkilərin qat-qat çox olması gözlənilirdi".

Ehtiyatda olan polkovnik deyir ki, bu gün böyük dövlətlərin ali hərbi məktəblərində Azərbaycanın XXI əsrin tələblərinə cavab verən, müasir müharibə aparması təcrübəsi öyrənilir. Təcrübədə şəxsi heyət arasında itkiləri minimuma gətirə biləcək amillərə xüsusi diqqət yetirilir.

### Ekoloji terror

İşğal zamanı məhv edilən, daşı daş üstündə qalmayan ərazilərimizdən biri də Cəbrayıl idi. Ermənilər hər şeyi vəhşicəsinə məhv etmiş, dağıtmışdılar, bununla ürəkləri soyumamış, təbiətə də ağır ziyan vurmaqdan çəkinməmişdilər. İşğaldan azad olunmuş hər bir rayonda ekoloji terrorun izləri aydın görünməkdədir. Meşələr qırılıb, çayların suyu çirkləndirilib, hətta əraziləri boşaldanda belə meşələrə od vurmaqdan çəkinməyiblər. Ərazilərimiz minalardan təmizləndikdən sonra qarşıda duran ilk məsələlərdən biri də ağacların əkilməsi, yaşıllıqların bərpası idi.

Bu istiqamətdə ötən il Cəbrayıl rayonunda "Türkiyə-Azərbaycan Qardaşlıq Meşəsi"nin, "Təlim-tədris mərkəzi"nin və "Tinglik sahəsi"nin yaradılması istiqamətində işlərə başlanılıb. Eyni zamanda Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Qarabağ Dirçəliş Fondu arasında işğaldan azad olunmuş ərazilərdə ətraf mühitə vurulmuş ziyanın aradan qaldırılması və bərpa işlərinin görülməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Əməkdaşlıq Memorandumunun məqsədi işğaldan azad olunmuş ərazilərdə ekoloji tarazlığın və təbiət obyektlərinin bərpası üzrə birgə tədbirlərin həyata keçirilməsi ilə regionda dayanıqlı məskunlaşmaya və inkişafa töhfə vermək, əlverişli həyat şəraitinin yaradılmasına dair tədbirləri ölkə daxilində və xaricində təşviq etməkdir. Həmçinin digər dövlət, özəl təşkilatlar, eyni zamanda diaspor və cəmiyyətin müxtəlif nümayəndələri də Memoranduma qoşularaq ekoloji tarazlığın bərpası və yenidənqurma işlərinin təşkilinə dəstək olmağa dəvət edilib.

### Tarixin izi

Cəbrayılda da tarixin izini itirmək məqsədilə abidələr dağıdılıb. İşğal dövrünə qədər rayonun ərazisi tarixi, mədəniyyət və memarlıq, mağara, qəbirüstü abidələrlə zəngin olub. Cəbrayıl şəhərində Ağoğlan nekropolu, Sirik kəndində Qala bürcü, Xələfli qəsəbəsində Qız qalası, Dağ Tumas kəndində Divlər sarayı, Tatar kəndində Siklop tikililəri, Şıxlar kəndində şəhərcik qalıqları və qışlaq yerləri, Ağoğlandakı Orxan yazılı abidəsi, Qumlaq kəndində 11 və 15 aşırımlı Xudafərin körpüləri, Cəbrayıl şəhərindəki Sultan Məcid hamamı, Xudyarlı kəndindəki dairəvi və səkkizguşəli türbələr, Şıxlar kəndində dairəvi türbə, XVI və XIX əsrlərə aid məscidlər işğal illərində məhv edilib.

Bununla belə nə qədər istəsələr də, tarixi silə bilməyiblər. Qarabağ, Şərqi Zəngəzur Azərbaycanın qədim torpaqlarıdır. Bu gerçəyi heç nə dəyişdirə bilməz. Abidələri, dağı, daşı, təbiəti məhv edərək hər şeyi silmək istəsələr də, o ərazilərdə bizim əcdadlarımızın izi var. Bu izlər isə silinməzdir, Zəfər izimiz kimi...

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



# Zəfərin zərif gücü



**"Siz hər bir insan üçün çox dəyərli olan sağlamlığınızı Vətən, torpaq yolunda qurban vermisiniz. Siz güllələr, bombalar altında Azərbaycan uğrunda, torpağımız, Vətənimiz uğrunda həyatınızı qurban verməyə hazır olmusunuz. Mən fəxr edirəm ki, Azərbaycanın belə oğulları var, mənim belə qardaşlarım var".**

Üç il əvvəl, 2019-cu il aprelin 3-də Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva fond tərəfindən yüksəktexnologiyalı protezlərlə təmin olunan hərbçilərlə görüşü zamanı söyləmişdi bu fikirləri.

Mehriban Əliyeva həm də şanlı Aprel qələbəmizin qazanılmasında böyük şücaət göstərən qazilərimizə hər zaman dəstək olacağını söyləmiş, "Hər bir problemin həllini şəxsən özüm diqqətdə saxlayacağam. Mən mümkün olan köməyi ən yüksək səviyyədə göstərəcəyəm", - deyə vurğulamışdı.

Birinci xanım bu sözlərlə vətənimiz uğrunda canları-qanları bahasına düşmənlə savaşaraq yaralanan hərbçilərimizin daim şəxsi diqqətdə saxlanılacağının, onların sağlamlıqları, həyat şəraitləri ilə bağlı bütün işlərin yüksək səviyyədə həll ediləcəyinin ismarıcını vermişdi.

Azərbaycan dövlətinin rifahı, xalqımızın daha firavan həyatı naminə çoxşaxəli uğurlu fəaliyyət göstərən Mehriban Əliyeva hər zaman əhalinin həssas təbəqəsinin problemlərinin həllini prioriteti hesab edib. Birinci xanım xüsusilə də şəhid ailələrinə və qazilərə daim yüksək qayğı və diqqət göstərib, onların müalicəsi, sağlamlıqlarının bərpası, işlə, evlə təminatı məsələləri istiqamətində mühüm fəaliyyətlər həyata keçirib.

## Haqq davamız uğrunda yorulmadan savaşdı

2020-ci il sentyabrın 27-də Vətən uğrunda çıxdığımız Zəfər yürüşünün 44 günündə də Mehriban Əliyeva dövlət xadimi, bir vətəndaş, hər şeydən də öncə bir ana kimi daim ordumuza, xalqımıza dayaq, dəstək nümayiş etdirdi.

Hər zaman olduğu kimi, həmin günlərdə də Mehriban xanım haqq davamızın beynəlxalq aləmə çatdırılması istiqamətində yorulmadan fəaliyyət göstərdi, faşist xislətli düşmənin hərb meydanında qəhrəman oğullarımızın qarşısından qaçaraq silahını mülki əhalimizə qarşı tuşlamasını, cəbhə bölgəsindən kilometrlərlə uzaqda yerləşən şəhər və kəndlərimizi raket atəşinə tutaraq terror törətməsini beynəlxalq aləmə çatdırdı.

Azərbaycanın Birinci vitse-prezidenti 17 oktyabr 2020-ci ildə Ermənistanın Gəncə terroru ilə bağlı instaqram hesabındakı paylaşımında da bir daha düşmənin mülki əhalimizə qarşı cinayətlərinə diqqət çəkmiş, xüsusilə vurğulamışdı ki, "Bu gecə Gəncəyə xaincəsinə edilən hücum təkcə Ermənistan hakimiyyətinin faşist mahiyyətinə və onun prinsipsizliyinə dəlalət etmir, həm də təcavüzkarın Azərbaycan Ordusu qarşısında total acizliyinin təzahürüdür".

## "Vətən naminə canından keçməyə hazır olan oğullar tərbiyə etmiş valideynlərin qarşısında baş əyirəm"

Vətən müharibəsində bütün cəbhələrdə göstərdiyimiz birliyimiz, gücümüz sayəsində rəşadətli ordumuz müharibənin elə ilk günlərindən "dəmir yumruğ"a çevrilərək düşmənin başını əzməyə başlamışdı. Ön səngərdən arxa cəbhəyə qanadlanan qalibiyyət xəbərlərinin ardı-arası kəsilmirdi, işğal altındakı torpaqlarımız addım-addım düşmən tapdağından azad edilirdi.

Amma müharibə qansız-qadasız olmur. Biz həm də cəbhədən yaralılarımızın, şəhidlərimizin ağrı-acılı xəbərlərini alırdıq.

Vətən sınağında keçdiyimiz həmin çətin günlərdə Mehriban xanım daim xalqımızın yanında idi, onlarla birgə sevinib, birgə kədərlənirdi. O ağır günlərdə Mehriban xanım şəhid analarına, bacılarına, həyat yoldaşlarına, övladlarına ən böyük dayaq, dəstək, təsəlli ünvanı idi...

"Bu gün mən şəhidlərimizin ailələri ilə birlikdə kədərlənir, Vətən naminə canından keçməyə hazır olan oğullar tərbiyə etmiş valideynlərin qarşısında baş əyirəm". Bu isə 2020-ci il dekabrın 4-də Mehriban xanımın şəhid anaların dərdinə şərik olmasının, kədərlərini bölüşməsinin daha bir kövrək ifadəsidir...

Bu, həm də Mehriban xanım üçün Vətənin bütövlüyü uğrunda canından keçən oğulların ən yüksək ada, onları böyüdən valideynlərin isə ən yüksək dəyərə, qayğıya layiq olduğunun bariz göstəricisidir...

## Şəhid ailələri və qazilər Mehriban Əliyevanın diqqəti və qayğısı ilə əhatə olunublar

Parlaq zəfərlə sonlandırdığımız Vətən müharibəsinin üzərindən cəmi bir neçə gün keçdikdən sonra, 2020-ci il noyabrın 11-də Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva haqq davamızın qəhrəman savaşçıları olan yaralı döyüşçülərimizin görüşünə getdilər. Həmin gün dövlətin ən ali kürsüsündə əyləşən mötəbər şəxslərin onların görüşlərinə gələrək dayaq-dəstək durmaları yaralı hərbiçilərimizə böyük ruh verdi. Vətəni qoruyan oğullarımız arxalarında dağ kimi dövlətlərinin, onun qayğıkeş rəhbərlərinin olması ilə bir daha qürur duydular.

Görüş zamanı Mehriban xanımın qəhərlənməsi, kövrəlməsi, gözlərinin yaşarması da o günün gözlərimizin önündən getməyən təsirli səhnələrindəndir.

Vətən müharibəsinin üzərindən ötən iki illik zaman ərzində də şəhid ailələri və qazilərimiz Mehriban xanım Əliyevanın şəxsi diqqəti və qayğısı ilə əhatə olunublar.

Xatırladaq ki, Heydər Əliyev Fondu "2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksəktexnologiyalı protezlərlə təmin edilməsi" layihəsini həyata keçirib. Ötən müddət ərzində yüzlərlə zabit və əsgər yüksəktexnologiyalı protezlərlə təmin olunub.

Eləcə də Vətən müharibəsində şəhid və qazi olanların ailələrinə hərtərəfli kömək göstərilir. Yaralılar yüksəktexnologiyalı protezlərlə təmin olunur, dünyanın ən nüfuzlu xəstəxanalarına müalicəyə göndərilir. Bir sözlə, bu kateqoriyadan olan insanlarımızın sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm işlər görülür.

## Mehriban Əliyevanın rəhbərliyi ilə...

İkinci Qarabağ müharibəsi parlaq zəfərlə yekunlaşandan dərhal sonra Azərbaycan dövləti işğaldan azad edilən bütün tarixi ərazilərimizdə sürətli quruculuq-bərpa işlərinə start verdi.

Heydər Əliyev Fondu da Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi, məcburi köçkünlərimizin öz doğma yurdlarına tez bir zamanda qayıdışı üçün görülən işlərə dəstək verir, xüsusilə də tarixi, dini və mədəni irsimizin bərpası istiqamətində mühüm fəaliyyət göstərir.

Bununla əlaqədar müjdəni isə xalqımıza hələ 2020-ci il dekabrın 8-də Birinci vitse-prezident rəsmi instaqram səhifəsindəki paylaşımından duydurmuş, Heydər Əliyev Fondunun qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığını bildirmişdi.

Mehriban xanım bəyan etmişdi ki, həyata keçiriləcək layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcəkdir. Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçələcək və bütün Qarabağ ərazisindəki məscidlərimizdə azan səsləri eşidiləcək, dualar oxunacaqdır.

Hazırda Heydər Əliyev Fondu tərəfindən işğaldan azad edilən bölgələrimizdəki bütün tarixi, mədəni, dini abidələrimiz bərpa olunaraq əvvəlki görkəminə qaytarılır, Azərbaycan xalqının zəngin xəzinəsi kimi gələcək nəsillərə ötürülür.

Heydər Əliyev Fondunun Şuşada gerçəkləşdirdiyi quruculuq və bərpa işləri ilə bağlı Prezident İlham Əliyev 16 mart 2021-ci ildə mədəniyyət paytaxtımıza səfəri zamanı söyləmişdi ki, Heydər Əliyev Fondu şəhərin bərpasına öz sanballı töhfələrini verəcəkdir: "Vaqifin məqbərəsində tezliklə bərpa işləri başlanacaq. Məqbərənin əvvəlki görkəmi bərpa ediləcək. Artıq işlərə start verilib. Bunu, həmçinin Molla Pənah Vaqifin büstünün bərpası layihəsini Heydər Əliyev Fondu öz vəsaiti hesabına icra edəcək, Heydər Əliyev Fonduna xas olan zövqlə, Mehriban xanımın rəhbərliyi ilə..."

Heydər Əliyev Fondu böyük məsuliyyətlə üzərinə götürdüyü bu işi müvəffəqiyyətlə reallaşdıraraq məqbərəni ötən il avqustun 29-da fərəhlə təhvil verib, eyni zamanda Vaqifin büstünün bərpası layihəsini icra edib. Fondun dəstəyi ilə Üzeyir bəy Hacıbəylinin bürüncdən hazırlanan heykəli Şuşa şəhərində öz əvvəlki yerində ucaldılıb.

Dini mirasımızın bərpasını da üzərinə götürən Heydər Əliyev Fondu bu istiqamətdə xeyli işlər reallaşdırır. Şuşada Yuxarı Gövhər ağa, Saatlı və Aşağı Gövhər ağa məscidlərinin bərpası ilə bağlı işlər aparılır.

Yeri gəlmişkən, Ağdam Cümə məscidinin bərpası ilə bağlı işlərə də start verilib.

Mədəniyyət paytaxtımızda bərpası həyata keçirilən binalardan biri də milli memarlıq ənənələrini özündə əks etdirən Şirin su hamamıdır. Məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın vaxtilə Şuşada yaşadığı ev də yenidən qurulur. Şuşadakı mühüm mədəni-tarixi memarlıq abidələrindən olan Mehmandarovların malikanə kompleksində də tikinti işləri aparılır.

## Böyük qayıdışa misilsiz töhfə

Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığına əsasən Heydər Əliyev Fondu Qarabağ ərazisində ermənilər tərəfindən dağıdılan, Azərbaycan xalqının milli sərvəti olan məscidlərin, dini, mədəni abidələrin bərpası ilə yanaşı, həm də bu bölgəmizdə tarixən var olan mədəni ənənələrimizi də dirçəldir.

32 ildən sonra, 2021-ci il mayın 12-13-də Şuşada, Cıdır düzündə fond tərəfindən təşkil olunan "Xarıbülbül" Musiqi Festivalı, həmin ilin avqustun 30-da illərdən sonra yenidən Şuşada təşkil olunan Vaqif Poeziya Günlərinin keçirilməsi və sair kimi mühüm tədbirlər bunun əyani təzahürüdür.

Bütövlükdə, Heydər Əliyev Fondunun işğaldan azad edilən yurdlarımızda həyata keçirdiyi quruculuq və bərpa işləri dədə-baba torpaqlarından didərgin düşən yüzminlərlə vətəndaşımızın doğma kənd və şəhərlərinə Böyük qayıdışına misilsiz töhfədir.

*Necə ki, elə Zəfər ilimizin 8 dekabrında Birinci vitse-prezident Mehriban Əliyeva əminliklə bəyan etmişdi: "Prezident İlham Əliyevin rəhbərliyilə bütün Qarabağ bölgəsini Azərbaycanın ən gözəl bölgələrindən birinə çevirəcəyik. Burada yenidən həyat canlanacaq, bütün rayonlarımız bərpa olunacaq, vətəndaşlarımız öz doğma yurd-yuvalarında yaşayıb, yaradacaqlar".*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

**Erməni millətçilərinin azərbaycanlılara qarşı törətdikləri düşmənlik siyasətinin 200 ildən artıq yaşı var. Əsrlər, illər keçməsinə baxmayaraq, xalqımız onun vurduğu ağır yaraları unutmur, soyqırımların qurbanları olmuş günahsız insanların xatirəsini dərin ehtiramla yad edir.**



# Erməni vandallarının Gəncə qətliamı

## Vətən müharibəsi dövründə tarixi şəhərimiz ayrı-ayrı vaxtlarda 5 dəfə bombalandı

Xalqımıza qarşı erməni vandallarının həyata keçirdikləri soyqırımı siyasətinin bir məqsədi olub: işğal olunmuş Azərbaycan torpaqları hesabına "böyük Ermənistan" dövləti yaratmaq. Lakin onlar unudurlar ki, öz qondarma dövlətlərini də Azərbaycan torpaqları üstündə qurublar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mötəbər tədbirlərdə, beynəlxalq qurumların və nüfuzlu dövlətlərin rəsmiləri ilə görüşlərində dəfələrlə qeyd edib ki, İrəvan, Zəngəzur və digər ərazilər tarixi Azərbaycan torpaqlarıdır. Bunu sübut etməyə ehtiyac yoxdur, bu tarixdir.

1905-1906-cı illərdə, habelə 1918-1920-ci illərdə İrəvanda, Dərələyəzdə, Zəngəzurda, Göyçədə, Tiflisdə, Naxçıvanda, Bakıda, Gəncədə, Şamaxıda, Qubada, Lənkəranda, Qarabağda, Muğanda və sair tarixi torpaqlarımızda dinc əhalimiz ermənilər tərəfindən soyqırımına məruz qalıb. Yüz minlərlə soydaşımız vəhşicəsinə qətlə yetirilib, olmazın işgəncələrin qurbanı olub.

Ermənistan dövlətinin tarixi ərazilərimizdə həyata keçirdiyi məqsədyönlü soyqırımı siyasətinə ilk dəfə Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən siyasi-hüquqi qiymət verilib. Ulu Öndər Azərbaycan tarixinin araşdırılması və tarixi faktlara düzgün qiymət verilməsi üçün fərman və sərəncamlar imzalayıb. İlk dəfə olaraq 1998-ci ildə Ulu Öndərin imzaladığı fərmana əsasən, 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

### 44 günlük Vətən müharibəsi bir daha ermənilərin iç üzünü açdı

2020-ci ilin 27 sentyabr tarixi xalqımızın yaddaşından heç vaxt silinməyəcək. Çünki həmin tarixdən başlayaraq 200 illik erməni təcavüzünə son qoyuldu. Bu, Zəfərin başlanğıc tarixi oldu. Həmin gün başlanan haqq savaşımız bizi böyük qələbəyə apardı. 44 günlük müharibənin əks-sədası bütün dünyaya səs saldı. Rəşadətli Azərbaycan Ordusu qısa vaxt ərzində Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə müasir hərb tarixinə əsl qəhrəmanlıq dastanı yazdı. Yüz illərlə ermənilər tərəfindən təcavüzə məruz qalan Azərbaycan işğal olunmuş torpaqlarını azad etdi.

Ermənilər yeni ərazilər uğrunda müharibələr aparmaq iddiasında idi. Ancaq düşmən 44 günlük müharibədə anladı ki, Azərbaycan artıq 1990-cı illərdəki Azərbaycan deyil. Azərbaycan güclü dövlətdir, onun ən müasir silahlarla silahlanmış ordusu var. Azərbaycan müstəqil siyasət yürüdür. Ali Baş Komandan İlham Əliyevin müharibə dövründə xalqa müraciətində "düşməni itiqovan kimi qovuruq" deməsi bu gün də dillərdən düşmür. 27 sentyabr 2020-ci il tarixdən davam edən hərbi əməliyyatlarda dövlət başçısı tərəfindən söylənən bu aforizmlər gerçəkləşdi. Üçtərəfli Bəyannamənin imzalanmasına qədər Azərbaycan Ordusu böyük şücaət göstərərək 300 yaşayış məntəqəsini, 5 şəhər və 4 qəsəbə, çoxsaylı strateji yüksəklikləri düşməndən azad etdi. Lakin düşmən müharibənin gedişində hər cür çirkin əməllərə əl atdı. Mülki əhalini atəşə tutdu və insan tələfatı ilə nəticələnən terror aktı törətdi ki, bu da ermənilərin olduqca rəzil, gücsüz durumda olduğunu göstərirdi. Azərbaycan dövləti beynəlxalq hüquq normalarına, müharibə qaydalarına riayət edərək torpaqlarını azad etmək uğrunda haqq savaşı apardı.

### Gəncənin raket atəşinə tutulması erməni xislətinin məntiqi davamı idi

44 günlük Vətən müharibəsi zamanı ermənilər Azərbaycanın dinc əhalisini də raket hücumuna məruz qoydu. Nəticədə mülki əhaliyə, eləcə də sosial obyektlərə, təhsil ocaqlarına xeyli ziyan dəydi. Müharibə bölgəsindən 100 kilometrlərlə uzaqda olan və Azərbaycanın ikinci böyük şəhəri Gəncənin 5 dəfə bombalanması nəticəsində çoxlu sayda insan həlak oldu. Onların arasında qadınlar, qocalar, hətta azyaşlı uşaqlar da var idi. Tutduğu cinayət hadisəsini ört-basdır etməyə çalışan Ermənistan xarici informasiya vasitələrində, o cümlədən sosial şəbəkələrdə törətdiyi cinayətləri pərdələməyə, həmin əməllərdən boyun qaçırmağa yönələn xəbərlər yaymağa çalışırdı. Lakin hadisə yerlərindən yerli və xarici mediyanın yaydığı foto və videogörüntülər onların yalanlarını da ifşa edirdi.

Ermənilər tərəfindən törədilən bu vəhşilik düşmənin terror əməli kimi qiymətləndirildi. Azərbaycanın bu haqq davaşında ermənilərin törərdikləri hadisələr suda boğulanın saman çöpündən yapışması kimi qarşılandı. Elə buna görə də erməni silahlı qüvvələrinin Gəncəni raket atəşinə tutması sakinlər arasında kədər yaratsa da, ruh düşkünlüyünə səbəb olmadı. Əksinə, onlar inanırdılar ki, tezliklə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu düşmən üzərində qələbə çalacaqdır. Belə də oldu və Azərbaycan torpaqları işğaldan azad edildi.













Artıq həmin dəhşətli günlərdən iki il ötür. İnsanlar hələ də törədilən faciələrin təsiri altındadırlar. Evləri dağılan, yaxınları həlak olan hər kəs ermənilərə lənət oxuyur, dünya birliyi ölkələrindən bu ədalətsizliyə layiqli qiymət verilməsini tələb edirlər.

Gəncənin raket atəşinə tutulması birinci dəfə oktyabrın 4-də həyata keçirildi. Raketin törətdiyi dağıntılara görə Ermənistan məsuliyyət daşısa da, bunu boynuna almırdı. Bu da onların yaramaz xislətinin göstəricisi idi.

Bundan şirniklənən Ermənistan silahlı qüvvələri oktyabrın 5-də ikinci raketi Gəncəyə atdılar ki, bu da şəhərdə "Grand Qafqaz" ticarət kompleksinə düşdü və nəticədə 3 mülki şəxs müxtəlif dərəcəli xəsarət aldı.

Oktyabrın 8-də gecə saatlarında üçüncü raketin atılması nəticəsində ölən və yaralanan olmasa da, çox sayda ev dağıldı və avtomaşınlara ziyan dəydi.

Oktyabrın 11-də, yerli vaxtla saat 02:00 radələrində atılan raket şəhərdə böyük dağıntı törətdi. Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, Ermənistanın Berd rayonunda yerləşən erməni silahlı qüvvələri Gəncəni "Skad" ballistik raketlərindən atəşə tutmuşdu. Raket insanların ən sıx yaşadıqları əraziyə düşdüyündən 31 mənzil tamamilə dağıldı, hadisə yerində və onun yaxınlığındakı obyektlərə ciddi ziyan dəydi. Ümumilikdə 205 nəfərin yaşadığı 95 mənzil qəzalı vəziyyətə düşdü, 10 nəfər həlak oldu, 40 nəfər yaralandı.

Ermənilərin atdıqları 5-ci raket də şəhərdə böyük dağıntılar törətdi. Oktyabrın 17-də, gecə saat 01:00-da atılan 3 ədəd "Skad" ballistik raket şəhərdə böyük səs-küyə səbəb oldu. Bu raketlər də əhalinin ən sıx yaşadıqları əraziyə düşdüyündən 20 ev dağıldı, çoxlu sayda mülki əhali bu dağıntıların altında qaldı. Nəticədə 16 nəfər həlak olmuş, 55 nəfər yaralandı.

### Ermənilərin törətdikləri bu vəhşilik gəncəliləri qətiyyən ruhdan salmadı

Göründüyü kimi, Gəncəyə raket hücumları Ermənistanın hərbi-siyasi rəhbərliyinin qeyri-insani, faşist simasını bir daha ifşa etdi. Bir daha sübut olundu ki, Ermənistanın əsas hədəfi yaşayış məntəqələri və dinc əhalidir. Noyabrın 10-da Rusiyanın vasitəçiliyi ilə əldə olunmuş atəşkəs Ermənistana mövcud reallığa adekvat addımlar atmaq, iddialarından geri çəkilmək, işğal siyasətinə son qoymaq, münaqişənin beynəlxalq hüquq çərçivəsində həll edilməsində real addımlar atmaq üçün son şans idi. Düşmən üçün imkan yaradırdı ki, daha artıq zərbələr almaqdan xilas olsun.

Qeyd edək ki, raket atəşinə məruz qalmış ərazilərdəki dağılmış binalar həmin dövrdə şəhər əhalisinin ziyarətgahına çevrilmişdi. Hər gün səhər tezdən yüzlərlə gəncəli, hətta ətraf bölgələrdən gələn insanlar əraziyə tər qərənfillər düzür, həlak olanların ruhunu ehtiramla anırdılar. Bundan başqa, dağıntılar önünə müxtəlif şüarlar da asılmışdı. Bu şüarlarda "Burada uşaqlar yatır", "Erməni terroruna son!", Erməni işğalına son!" kimi sözlər yazılmışdı. Bununla insanlar həm də dünya ictimaiyyətinin diqqətini ermənilərin mənfur hərəkətlərinə yönəltmək istəyirdilər.

Evi dağılmış Zahid Babazadə söhbət zamanı dedi ki, raket hücumuna məruz qalana kimi özünü dünyanın ən xoşbəxt insanı hesab edirdi. Qızını el adəti ilə gəlin köçürdükdən sonra bir qız nəvəsi də olmuşdu. Lakin erməni vandalizmi bu xoşbəxt ailəyə faciə yaşatdı. Raket düşən anda qızı, onun həyat yoldaşı yerindəcə həlak oldular. Ailədən yalnız nəvəsi Nilay qaldı.

Zahid Əliyev və Kifayət Cəfərova da hadisə zamanı zərər çəkənlərdəndirlər. Raketin partlaması ilə qardaşı oğlu Adil, qardaşının həyat yoldaşı Afaq dağıntılar altında qaldılar. Onları dağıntılar altından çıxaranda artıq dünyalarını dəyişmişdilər.

İstər hadisə zamanı, istərsə də hadisədən sonrakı dövrdə evlərini və yaxınlarını itirmiş insanlar ümidsiz deyildilər. Onlar Azərbaycan Ordusunun gücünə inanır və tezliklə qələbə çalacağımızı söyləyirdilər. Belə də oldu. 30 illik işğala son qoyuldu.

### Raket hücumu zamanı dəyən ziyan aradan qaldırılır

Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü nəticəsində mülki insanların daşınmaz əmlakına dəymiş ziyanın aradan qaldırılması üçün müharibədən sonra dövlət başçısının müvafiq sərəncamı ilə şəhərdə bərpa işlərinə başlanıldı. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov söhbət zamanı dedi ki, dağılmış evlərin və obyektlərin bərpası diqqət mərkəzindədir. Qısa vaxt ərzində qeydə alınmış 37 obyektdən 37-sində təmir başa çatmış, bərpa olunacaq 84 obyektdən 78-ində yekunlaşmışdır. Hazırda 6 obyektdə işlər davam etdirilir. Dağılmış və ya qəzalı vəziyyətə düşmüş fərdi yaşayış evlərinin hamısında, yəni 37-sində, bərpasına ehtiyac olan fərdi yaşayış evlərinin 71-dən 66-sında, təmirə ehtiyacı olan fərdi yaşayış evlərinin və çoxmənzilli binaların hamısında, yəni 1056 mənzildə təmir işləri başa çatdırılmışdır. Təmirə ehtiyacı olan 266 obyektdə və 11 qeyri-yaşayış sahəsində bərpa işləri tamamlanmşdır. Şəhər icra hakimiyyəti görülən bu işlərə xüsusi nəzarət edir. Bundan başqa, evlərinin bərpası mümkün olmayan ailələrə yeni mənzillər də verilmiş, ev əşyalarının alınmasında onlara maddi kömək göstərilmişdir. Hazırda dağılmış evlərin və obyektlərin bərpası istiqamətində işlər davam etdirilir.

### Yarımçıq qalan arzu

Ailənin böyüyü, sevimlisi olan 15 yaşlı Nigar Əsgərova həkim olmaq arzusu ilə yaşayırdı. Bu arzusunu gerçəkləşdirmək üçün müəllimlərinin verdiyi tapşırıqları böyük həvəslə yerinə yetirirdi. Oxuduğu hər mövzuya dərindən yiyələnir, hətta yeri gələndə sinif yoldaşlarına da kömək edirdi. Bütün fənlərdən yüksək qiymətlər alması Nigarın universitetə daxil olmaq arzusunu gündən-günə gerçəkləşdirirdi. Cəmi bircə il qalmışdı. Lakin sən saydığını say... 2020-ci il oktyabrın 17-də gecə saatlarında erməni vandallarının atdıqları raket bir çoxları kimi onun da arzusunu ürəyində qoydu. Nigarın da yaşadığı evdə dağıntılar törətdi. Raketin düşdüyü yerin ətrafında nə qədər ev vardısa, hamısı yerləyeksan oldu. Nigarın da həyatı beləcə söndü.

### Hər iki valideynini itirən Sevil Əliyeva keçən il tələbə adını qazandı

Ermənilərin raket hücumu nəticəsində evləri dağılan və hər iki valideynini itirən Sevil Əliyeva keçən il yüksək balla Azərbaycan Dövlət Aqrar Universitetinə daxil oldu. Tələbə bileti təqdim ediləndə göz yaşını saxlaya bilməyən Sevil ancaq bunları deyə bildi: "Atam da, anam da istəyirdilər ki, mən ali təhsilli iqtisadçı olum. Bu gün onların arzularını gerçəkləşdirdim. Ancaq onlar bunu görmədilər. Kaş mənim sevincimə şərik olaydılar".

Sevil indi universitetin İqtisadiyyat fakültəsinin ikinci kursunda təhsil alır. Ali təhsil müəssisəsi ona tələbə təqaüdündən əlavə daxili imkanlar hesabına 150 manat təqaüd verir.

Onu da deyək ki, ata-anası həlak olandan sonra Sevilin 8 yaşlı qardaşı da qalıb. Hər ikisi nənəsi Ağgül Əliyevanın himayəsində yaşayır.

### Terror aktının törətdiyi dağıntılar xarici qonaqları heyrətə salır

Həmin vaxtdan iki il keçsə də, raket hücumu nəticəsində həlak olanların xatirəsi heç vaxt unudulmur. Gəncəyə səfər edən elə bir insan yoxdur ki, dağıntıları ziyarət etməsin. Xarici ölkələrin dövlət və ictimai xadimləri, diplomatlar, eləcə də jurnalistlər burada baş verənlərlə tanış olarkən erməni vandallığının bir daha şahidi olurlar.

İsrailin Azərbaycandakı səfiri Corc Dik, Varşava Böyük Kahinlər Seminariyasının rektoru Voyçex Barkovic, İtaliya Senatının üzvü, İtaliya-Azərbaycan Dostluq Assosiasiyası rəhbərinin müavini Maria Rizotti, Ukraynalı jurnalist Taras Berezovets və başqaları ermənilərin törətdikləri vəhşilikləri vandalizm adlandırmış və dünya birliyi ölkələrindən bu faciəyə real qiymət verməyi tələb etmişlər.

Rusiyalı siyasətçi və jurnalist Maksim Şevçenkonun Gəncəyə səfəri zamanı ermənilərin atdıqları ballistik raketlərin dağıtdıqları ərazilərdə olarkən bunu dinc əhaliyə qarşı törədilən vandalizm, terrorun qatı nümunəsi kimi qiymətləndirmişdir. Demişdir ki, bu əməllərin məqsədi mülki sakinlərin öldürülməsi və şəhərdə miqyaslı dağıntılar törədilməsi yolu ilə kütləvi vahimə yaratmaq olub. Lakin bu xain hücumlar əks nəticə verdi. Azərbaycanlılar bunun cavabını öz doğma torpaqlarını qaytarmaq üçün açdıqları hərb meydanında verdilər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



# Şərqi Zəngəzurun ilk sənaye parkı



## İlham Əliyevin bir il öncə Cəbrayılda təməlini qoyduğu "Araz Vadisi İqtisadi Zonası" işğaldan azad edilmiş ərazilərin yenidən qurulması prosesinə mühüm töhfə verəcək

**44 günlük İkinci Qarabağ müharibəsində tarixi zəfərimizdən sonra Qarabağda və Şərqi Zəngəzurda başlanan genişmiqyaslı bərpa və quruculuq işləri getdikcə daha da sürətlənir. Azərbaycan yalnız öz gücünə işğaldan azad edilmiş torpaqlarda müxtəlif sosial-iqtisadi layihələr reallaşdırır.**

Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərimizə hər səfəri mühüm hadisələr, yeni obyektlərin açılışı və təməlqoyma mərasimlərinin keçirilməsi ilə yadda qalır. Azərbaycan Prezidentinin ötən il oktyabrın 4-də Cəbrayılın işğaldan azad edilməsi tarixindən bir il sonra bu rayona səfəri bir sıra mühüm məqamlarla yadda qaldı.

### Şərqi Zəngəzurun Cənub qapısında yaradılan sənaye parkı

Əlamətdar hadisələrdən biri dövlət başçısının Şərqi Zəngəzur iqtisadi rayonunda, Cəbrayıl ərazisində "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməlini qoyması oldu. Bu mühüm addım Prezidentin 4 oktyabr 2021-ci il tarixli "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yaradılması haqqında fərmanından irəli gəlirdi.

Sənəddə də qeyd edildiyi kimi, işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma, iqtisadi fəaliyyətin canlanması və nəqliyyat-logistika imkanlarından istifadə regional iqtisadi əlaqələri genişləndirəcək. Nəzərdə tutulan strateji istiqamətlərin uğurla həyata keçirilməsi üçün yeni texnologiyalara əsaslanan rəqabətqabiliyyətli və innovativ sənaye sahələrinin, o cümlədən tikinti materialları istehsalının dəstəklənməsi olduqca mühüm məsələdir. İşğaldan azad olunmuş Şərqi Zəngəzur iqtisadi rayonunun Arazboyu ərazisinin əsasən düzənlik relyefə və həmin bölgənin cənub istiqamətində giriş qapısı mövqeyinə malik olması sənaye parkının yaradılması üçün əlverişli şəraiti təmin edirdi. Şərqi Zəngəzur iqtisadi rayonunun cənubunda, Cəbrayıl rayonu ərazisində yerləşən tarixi Xudafərin körpülərinin olduğu istiqamətdə sərhəd-gömrük keçid məntəqəsinin açılması sənaye parkının fəaliyyətə başlaması ilə daha da səmərəli olacaq.

Sənaye parkı 200 hektar ərazini əhatə edir. Ərazi kənd təsərrüfatı məhsullarının emalı, sənaye, sosial və texniki zonalara bölünüb. Parkda "KAMAZ Azərbaycan Lizinq" MMC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin təməli qoyulub. Regional servis mərkəzində "KamAZ" ilə yanaşı, digər yük avtomobilləri, eləcə də kənd təsərrüfatı texnikalarına, o cümlədən traktor və kombaynlara texniki servis xidməti göstəriləcək. Gələcəkdə sənaye parkında logistika və anbar kompleksləri, TİR parkı, topdan və pərakəndə satış obyektləri və müxtəlif istehsal və xidmət müəssisələrinin fəaliyyəti nəzərdə tutulur. Sənaye parkının konseptual planı hazırlanıb və növbəti mərhələdə parkın sosial zonasının təşkili üçün konteynerlərin quraşdırılmasına başlanılacaq.




Sənaye parkının yaxınlığında yaşayış məntəqəsi olmadığı üçün sosial zonada 60 nəfərlik mobilizasiya şəhərciyi qurulub. Şəhərcikdə parkın idarə olunması və rezidentlər üçün ofis binaları, inzibati heyət, rezidentlər, tikintini həyata keçirən mühəndis və fəhlələr üçün yaşayış binaları, xidmət obyektləri, tibb məntəqəsi və digər infrastruktur yaradılıb.

Artıq burada 1 sahibkara rezidentlik, 1 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Qeydiyyata alınmış rezident "KAMaz Azərbaycan Lizinq" MMC artıq torpaq və fundament işlərinə başlayıb, parka 6 milyon ABŞ dolları yatırmağı və 65 daimi iş yeri yaratmağı nəzərdə tutur. Qeyri-rezident - "Azpetrol" MMC isə yanacaqdoldurma məntəqəsi tikəcək. Artıq baş plan təqdim olunub, işlər davam edir.

Bu layihələrin həyata keçirilməsi bölgənin potensialının ölkə iqtisadiyyatına reinteqrasiyasına, yerli istehsalın inkişafına böyük təkan verəcək, məşğulluq səviyyəsinin yüksəlməsinə əlavə imkanlar yaradacaq.

İşğaldan azad edilmiş Cəbrayıl rayonu qum-çınqıl, mişar daşı, kərpic gili, sement xammalı, gəc, əhəng və yəşəm kimi faydalı qazıntılarla zəngindir. İşğaldan əvvəlki dövrdə rayon iqtisadiyyatının əsas sahələri üzümçülük, tütünçülük, heyvandarlıq və taxılçılıq olub. Həmçinin rayonda qaramal kökəltmə, quşçuluq və baramaçılıq təsərrüfatları, xalçaçılıq müəssisəsi, üzüm emalı, çörək zavodları, kənd təsərrüfatı texnikasının təmiri müəssisələri fəaliyyət göstərib.

Onu da vurğulayaq ki, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı Azərbaycanın sayca 7-ci sənaye parkıdır. Torpaqlarımız işğaldan azad olunana qədər ölkəmizdə 5 sənaye parkı - Sumqayıt Kimya Sənaye Parkı, Balaxanı, Qaradağ, Mingəçevir, Pirallahı sənaye parkları mövcud idi. Şanlı zəfərdən sonra Prezident İlham Əliyevin sərəncamları ilə Qarabağ İqtisadi Rayonunda Ağdam Sənaye Parkı və Şərqi Zənəzurda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb.

Hazırda işğaldan azad edilmiş ərazilərdə yaradılmış sənaye parklarında investisiya dəyəri 60 milyon manatdan çox olan 15 layihəyə baxılır və bu layihələrin reallaşdırılması nəticəsində 800 nəfər daimi işlə təmin ediləcək.

### Sənaye parkı bərpa-quruculuq layihələrinin reallaşmasını sürətləndirəcək

Sənaye parkları ölkədə qeyri-neft sektorunun davamlı inkişafında, idxalı əvəz edən məhsulların istehsalının artırılmasında əhəmiyyətli rol oynayır. Sənaye parklarının rezidentləri tərəfindən istehsal olunan məhsullar daxili bazarın tələbatının ödənilməsi ilə yanaşı, "Made in Azerbaijan" brendi ilə bir çox ölkələrə ixrac edilir.

Ölkəmizdəki sənaye zonalarında sahibkarlıq fəaliyyətinin inkişafı üçün dövlət tərəfindən əlverişli investisiya mühiti yaradılıb. Sənaye zonalarında fəaliyyət göstərən sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən, 7 il müddətinə isə gömrük rüsumundan azad olunurlar.

Əlbəttə ki, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı da işğaldan azad olunan ərazilərimizin sürətli inkişafına təkan verəcək. Həmçinin Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının resurslarını, Zəngəzur dəhlizinin açılması ilə yaranacaq tranzit potensialını artıracaq, bərpa-quruculuq layihələrinin reallaşmasını sürətləndirəcək. Atılan bu addımlar dövlətin həyata keçirdiyi sosial-iqtisadi siyasətin əsas tərkib hissəsi kimi əhalinin məşğulluğunun təmin olunmasına da öz müsbət təsirini göstərəcək.

Göründüyü kimi, bu cür sənaye komplekslərinin yaradılması respublikanın qeyri-neft sektorunun davamlı inkişafı, iqtisadiyyatın ixrac qabiliyyətinin, idxalı əvəz edən məhsulların istehsalının artırılması, investisiyaların və müasir texnologiyaların cəlb olunması kimi önəmli vəzifələrin yerinə yetirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu gün əminliklə qeyd edə bilərik ki, dövlət başçısının uğurlu və gələcəyə hesablanmış inkişaf strategiyası nəticəsində Azərbaycan keyfiyyətcə yeni dövrə - modernləşmə mərhələsinə qədəm qoyaraq regionun ən güclü sənaye mərkəzi kimi tanınmaqdadır.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# ZƏFƏR gündəliyi

## 4 oktyabr 2020-ci il

**Oktyabrın 4-də** Ermənistan ərazisindən Füzuli rayonunun ərazisi raket atəşinə, işğal altında olan ərazilərimizdən isə Ağdam və Tərtər rayonlarının kəndləri artilleriya atəşinə tutulur.

Xankəndi şəhərindən şimalda Ballıcada yerləşən hərbi hissədən Azərbaycan Ordusunun bölmələrinin mövqeləri və yaşayış məntəqələrimiz son iki gün ərzində intensiv atəşə tutulur. Beynəlxalq təşkilatların nümayəndəlikləri vasitəsilə düşmənə bir neçə dəfə xəbərdarlıq edilməsinə baxmayaraq, bu hələ də davam edir.

❖ ❖ ❖

Düşmən Gəncə şəhərini Ermənistan ərazisindən atəşə məruz qoyur. Erməni tərəfinin Gəncə şəhərindəki hərbi obyektlərin vurulması ilə bağlı yaydığı xəbər təxribat xarakteri daşıyır və yalandır.

Düşmən tərəfindən açılan atəş nəticəsində Gəncədə dinc sakinlərə, mülki infrastruktura və qədim tarixi tikililərə ziyan dəyir.

❖ ❖ ❖



Düşmənin zirehli texnikaları, atəş-dəstək və təminat vasitələri məhv edilir. Azərbaycan Ordusunun rəhbərliyi döyüş tapşırıqlarının uğurlu icrasını planlaşdırır və təşkil edir. Dəfələrlə edilən xəbərdarlığa məhəl qoymayan düşmənə qarşı Azərbaycan Ordusu tərəfindən cəza tədbirləri görülür.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov açıqlama verərək deyir ki, Ermənistan ərazisindən Azərbaycan ərazisinə atəş açılması açıq təxribat xarakteri daşıyır və döyüş bölgəsini genişləndirir.

❖ ❖ ❖



Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu il iyunun 18-də təkbaşına döyüşərək xeyli sayda düşmən qüvvəsini məhv etdiyi posta Azərbaycan bayrağı sancılır.

Artıq həmin postda Azərbaycan bayrağı dalğalanır!

❖ ❖ ❖

Cəbrayıl istiqamətində düşmənin xeyli sayda silah-sursatı, döyüş və avtomobil texnikası qənimət götürülür.

❖ ❖ ❖

Ali Baş Komandan İlham Əliyev rəsmi tviter səhifəsində paylaşım edərək xalqa növbəti müjdəni verir: "Bu gün Azərbaycan Ordusu Cəbrayıl şəhərini və rayonun bir neçə kəndini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖



Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi instaqram səhifəsində ordumuzun cəbhədə qazandığı qələbələrlə bağlı paylaşım edir:

"Bütün Azərbaycan xalqını və bizim qələbələrimizə sevinən hər kəsi səmimi-qəlbdən təbrik edirəm. Vətən yolunda canından keçmiş qəhrəman şəhidlərimizə Allah rəhmət eləsin! Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Ali Baş Komandan birlik komandirləri - general-mayor Mayis Bərxudarovu, general-mayor Hikmət Mirzəyevi və onların rəhbərlik etdikləri şəxsi heyəti Cəbrayıl şəhərinin və rayonunun 9 kəndinin işğaldan azad olunması münasibətilə təbrik edir. Onlara tapşırıq verir ki, Ali Baş Komandanın təbriklərini korpusların bütün şəxsi heyətinə çatdırsınlar.

Mayis Bərxudarov və Hikmət Mirzəyev Ali Baş Komandana öz təşəkkürlərini bildirərək, Prezidenti əmin edirlər ki, qarşıya qoyulmuş bütün vəzifələri bundan sonra da şərəflə yerinə yetirəcəklər.

❖ ❖ ❖



Axşam saatlarında Prezident xalqa müraciət edir. Prezident Cəbrayıl şəhərinin və rayonun doqquz kəndinin işğaldan azad edilməsi münasibətilə xalqı təbrik edir.

Ali Baş Komandan deyir ki, bir həftədir döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, düşməni yerinə oturdur, torpaqlarımızdan qovur, canı-qanı bahasına. Bu şərəfli missiya tarixdə öz yerini tapacaq: "Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır".

Prezident deyir ki, Azərbaycan tarixində bir çox şərəfli anlar olub, amma onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Azərbaycan ədaləti bərpa edir: "Biz Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖



Prezident İlham Əliyev "Əl-Ərəbiyə" televiziya kanalına müsahibə verərək bir daha bəyan edir ki, Azərbaycanı heç kim haqq yolundan döndərə bilməz.

"Hadisələrin nəzarətdən çıxdığını düşünmürəm, vəziyyət Azərbaycan Ordusunun nəzarəti altındadır. Biz hazırda hücum əməliyyatını həyata keçiririk, bizim məqsədimiz ərazilərimizi azad etməkdir" deyən dövlət başçısı vurğulayır ki, əgər Ermənistan atəşkəs istəyirsə, Azərbaycandan üzr istəyib, torpaqlarımızdan çıxmaqla bağlı vaxt cədvəli təqdim etsin. Belə olarsa, Azərbaycan Ordusunun uğurlu əməliyyatları dayandırılacaq və danışıqlar aparılacaq.

"Bizim müqəddəs Şuşa torpağında öz bandası ilə rəqs etməklə və "Qarabağ Ermənistandır" deməklə azərbaycanlıların hisslərini təhqir etmiş Ermənistanın baş naziri üzr istəməli və deməlidir ki, "Qarabağ Ermənistan deyil". Mənim sözüm budur".

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələri tərəfindən Mingəçevir şəhərinin ərazisinə raket zərbələri, Tərtər şəhərinin ərazisinə isə artilleriya zərbələri endirilir.

***R.BAXŞƏLİYEV, "Azərbaycan"***



# Avropa İlham Əliyevin qlobal liderliyini etiraf etdi

## Qitə ölkələrinin rəhbərləri Azərbaycan Prezidentinin enerji təhlükəsizliyi ilə bağlı qətiyyətli fəaliyyətini yüksək qiymətləndirirlər

*Əvvəli 1-ci səh.*

### Azərbaycan etibarlı və sınanmış tərəfdaşdır

Bu gün Azərbaycanın mühüm geosiyasi uğurlarından biri dünya birliyində güclü mövqeyə malik olması, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kurs respublikamızı inkişaf yoluna çıxarmaqla yanaşı, regional və beynəlxalq miqyasda nüfuzunu daha da artırıb. Azərbaycan dünyanın sayılıb-seçilən, hörmət olunan, etimad göstərilən dövlətinə çevrilib. Ona görə bir sıra dövlətlər, o cümlədən Avropa İttifaqının üzvləri Cənubi Qafqazın lideri olan Azərbaycanla strateji tərəfdaş olduqlarını elan ediblər. Dünyanın böyük siyasi və iqtisadi dairələri Azərbaycanın regiondakı liderliyini və qlobal siyasətdə rolunu daim yüksək qiymətləndirirlər.

Azərbaycanın regional və qlobal miqyasda uğurlarını şərtləndirən əsas səbəb ölkə rəhbərliyinin yürütdüyü siyasətdir. Bu siyasətin müstəqil olması, yalnız və yalnız xalqın və dövlətin maraqlarına xidmət etməsi güclü Azərbaycan dövlətini xarakterizə edən əsas məqam kimi çıxış edir. Sentyabrın əvvəllərində İtaliyanın Çernobbio şəhərində keçirilən "Dünya, Avropa və İtaliyaya baxış" və "Rəqabətli strategiyalar üçün bu günün və sabahın ssenarisi" mövzusunda forumda Prezident İlham Əliyev bununla bağlı demişdi: "Biz heç bir zaman özümüzü nəhəng qonşularımızın siyasətinə uyğunlaşdırmamışıq. Bizim hər zaman öz siyasətimiz olub, hansı ki beynəlxalq hüquq, ədalət, beynəlxalq təşkilatların qərarları və sənədləri, həmçinin müdriklik üzərində formalaşıb. Buna görə də düşünürəm ki, biz uğur əldə etmişik".

Prezident İlham Əliyevin Bolqarıstana səfəri zamanı Azərbaycanla bağlı söylənən fikirlər bir daha ölkəmizin qlobal nüfuzunu təsdiq edən mühüm məqamlardır. Məsələn, İlham Əliyevlə geniş tərkibdə görüşdə Bolqarıstan Prezidenti Rumen Radev deyir: "Biz Azərbaycanla sıx dostluq, qarşılıqlı hörmət münasibətlərinə malikik. Bizim ən yüksək səviyyədə siyasi dialoqumuz il ərzində çox fəal olub, münasibətlərimiz artıq strateji tərəfdaşlıq səviyyəsinə qalxmışdır. Bizim üçün Azərbaycan etibarlı və sınanmış tərəfdaşdır. Əminəm, bizim qarşılıqlı marağımız var ki, bütün sahələr üzrə praqmatik və səmərəli münasibətlərimizi inkişaf etdirək".

Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimi Prezident İlham Əliyevlə görüşdə Rumıniyanın Baş naziri Nikolae-Yonel Çuke də Azərbaycanla ölkəsi arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsində inkişafından məmnunluğunu ifadə edib. Baş nazir müxtəlif sahələrdə geniş gündəlik əsasında əlaqələrin daha da inkişafı üçün böyük imkanların olduğunu bildirib, eyni zamanda Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rolu xüsusilə qeyd edib.

### "Dostumuz İlham Əliyevin iştirakı olmasaydı..."

Təbii ki, bütün bunları şərtlərindən əsas amil Prezident İlham Əliyevin yürütdüyü siyasətdir. Gərgin qlobal beynəlxalq münasibətlər şəraitində istənilən məsələ üzrə Azərbaycanın milli maraqlarının sadiq təminatçısı kimi çıxış edən Prezident İlham Əliyev beynəlxalq miqyasda da əsl lider olaraq ehtiramla qarşılanır. Təsadüfi deyil ki, dövlətimizin başçısının hadisələrə baxışı, münasibəti hər bir beynəlxalq tədbirin diqqətlə izlənilən məqamlarındandır.

Serbiya Prezidenti Aleksandar Vuçiçin Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimində dediyi sözlər bu baxımdan Prezident İlham Əliyevin Avropada qəbul edilən lider olduğunu təsdiq edir. "Bolqarıstanlı və yunanıstanlı dostlarımızı bu interkonnektorun uğurla tamamlanması münasibətilə təbrik edirəm. Layihə Serbiya üçün də vacib əhəmiyyət kəsb edir. Deməliyəm ki, dostumuz İlham Əliyevin iştirakı olmasaydı, bizim hər birimiz üçün qaz, eləcə də elektrik enerjisi təchizatının şaxələndirilməsinə ümid etmək asan olmazdı. Əziz dostum, görürəm ki, indi Siz Avropada çox məşhurlaşmısınız. Mən Sizinlə əlaqə saxlamaq istəyirəm. Mən onunla dəfələrlə danışmışam. O, Avropada çox məşhurlaşıb. Bu arada, bilmirəm o, nə edib, amma etiraf edim ki, bunun sirrini mən də bilmək istərdim" - deyə Aleksandar Vuçiç bildirib.

Qeyd edək ki, "Cənub qaz dəhlizi"nin gerçəkləşməsi ilk gündən Prezident İlham Əliyevin siyasi iradəsinə bağlı olub. Azərbaycan dövləti bütün maraqlı siyasi və iqtisadi tərəfləri bu layihə ətrafında qətiyyətlə birləşdirdi, ölkəmizin təşəbbüsləri Avropa İttifaqı tərəfindən dəstəkləndi. Bu enerji infrastrukturunun ərsəyə gətirilməsi zamanı Azərbaycanın etibarlı tərəfdaş kimi qarşıda duran vəzifələri vaxtında icra etməsi isə daim Avropanın diqqətini çəkib. "Cənub qaz dəhlizi"nin həyata vəsiqə alması bir çox mərhələlərdən keçib. Bəlkə də bəzilərinə illər öncə bu layihənin reallaşması qeyri-mümkün görünürdü. Lakin ilk növbədə İlham Əliyevin müdrikliyi və siyasi iradəsi bu layihənin hər bir mərhələsinin uğurla tamamalanmasını təmin edib.

Bu baxımdan Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimi deyilən digər fikirlər də Prezident İlham Əliyevin fəaliyyətinə verilən yüksək qiymətdir. "Nəhayət ki, 10 ildən çox bundan əvvəl Prezident Pırvanovla əldə edilən razılaşmaya sadiq qalan Prezident Əliyevin simasında özünü etibarlı tərəfdaş kimi sübut etmiş Azərbaycandan real qaz axını var", - deyə Bolqarıstan Prezidenti Rumen Radev bildirib.

Ulu Öndər Heydər Əliyevin başladığı və bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kurs güclü Azərbaycan dövlətinin qurulmasını təmin edib. Müstəqil siyasət yürüdən beynəlxalq birliyin fəal üzvü, aktual qlobal müzakirələrin fəal iştirakçısı, Avropanın enerji təhlükəsizliyində aparıcı dövlətlərdən biridir. Vətən müharibəsindəki qələbə isə respublikamızın beynəlxalq nüfuzunu daha da artıran tarixi amil oldu. Bütün bunları təmin edən Prezident İlham Əliyev beynəlxalq miqyasda, bütün siyasi dairələrdə ehtiramla qəbul olunan dövlət başçısı və siyasi liderdir. Prezident İlham Əliyev Bolqarıstana rəsmi səfəri və Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimi deyilənləri bir daha təsdiq edən siyasi hadisələr oldu.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Azərbaycan Beynəlxalq Telekommunikasiya İttifaqının Şurasına və Radio Tənzimləmə Komitəsinə üzv seçilib

Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) sentyabrın 26-dan oktyabrın 14-dək Rumıniyanın Buxarest şəhərində növbəti Səlahiyyətli Konfransı keçirilir.

Qeyd edək ki, Beynəlxalq Telekommunikasiya İttifaqının 4 ildən bir keçirilən Səlahiyyətli Konfransı zamanı təşkilatın Baş katibi, Baş katibin müavini, büro direktorları, o cümlədən BTİ-nin Radio Tənzimləmə Komitəsinə və təşkilatın idarəedici orqanı olan Şuraya üzvlər seçilir.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, sözügedən seçkilərdə Azərbaycanın 2023-2026-cı illər üzrə BTİ Şurasının üzvlüyünə, habelə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nümayəndəsi Sahibə Abdullayevanın təşkilatın Radio Tənzimləmə Komitəsinin üzvlüyünə namizədlikləri irəli sürülmüşdü.

Oktyabrın 3-də Azərbaycan yenidən BTİ-nin Şurasına 154 ölkənin səsi ilə üzv seçilib. Ölkəmizin ardıcıl olaraq üçüncü dəfə şuraya seçilməsi böyük nailiyyətdir. Xatırladaq ki, 2018-ci ildə ölkəmiz şuraya 119 səslə seçilmişdi.

Həmçinin BTİ-nin Radio Tənzimləmə Komitəsinə seçkilərdə ölkəmizin namizədi Sahibə Abdullayeva da 114 ölkənin səsini qazanaraq Şərqi Avropa və Şimali Asiya regionunda ən çox səslə Radio Tənzimləmə Komitəsinə yenidən seçilmiş Azərbaycan təmsilçisi olub. Radiorabitə Komitəsinə üzv seçilən Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin əməkdaşı Sahibə Abdullayeva radiorabitə sahəsində ixtisaslı mühəndisdir.

1992-ci ildən BTİ-nin üzvü olan Azərbaycan 2014 və 2018-ci illərdə ardarda şuranın üzvü seçilib və bu illər ərzində şuranın fəaliyyətində fəal iştirak edir.

Xatırladaq ki, sentyabrın 27-də Səlahiyyətli Konfransda Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev çıxış edərək Azərbaycanda rəqəmsal transformasiya çərçivəsində həyata keçirilən layihələr haqqında məlumat verib.

Konfrans davam etdiyi günlərdə Azərbaycan nümayəndə heyəti dünyanın bir çox ölkələrindən olan nümayəndələrlə sıx əlaqələrin qurulması, yeni əməkdaşlıq sahələrinin müəyyən olunması, ölkəmizin seçiləcəyi təqdirdə təşkilatın işinə verəcəyi töhfələr barədə təbliğat və təşviqat işləri aparıb.

Cari il ərzində müvafiq regional təşkilatların iclaslarında (Regional Rabitə Birliyi (RCC), Telekommunikasiya və Poçt Administrasiyalarının Avropa Konfransı (CEPT), Asiya və Sakit Okean regionu üzrə Telekom Birliyi (APT), Amerika Regional Telekommunikasiya Komissiyası (CITEL), Afrika Telekommunikasiya Birliyi (ATU) mütəmadi iştirak edilib və ölkəmizin seçki təşviqatı aparılıb.

Həmçinin BTİ-nin Ümumdünya Telekommunikasiya Standartlaşdırma Assambleyasında, şura iclaslarında, İnformasiya Cəmiyyəti üzrə Ümumdünya Sammitində, Dünya İnkişaf Konfransında aktiv iştirak olunub.

Ölkəmizin bu konfransda yüksək nəticələr əldə etməsində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə yanaşı, Xarici İşlər Nazirliyinin mühüm rolu olub. Azərbaycanın bu mötəbər beynəlxalq təşkilata növbəti dəfə üzv seçilməsi, daha çox ölkədən səs alması ölkəmizin beynəlxalq aləmdə nüfuzunun daha da artmasını bir daha nümayiş etdirir, həmçinin respublikamızın telekommunikasiya sahəsində həyata keçirdiyi genişmiqyaslı işlərin davamlı və uğurlu olacağına zəmin yaradır.

Şuranın üzvü qismində ölkəmizin təşkilatın idarəetməsində birbaşa iştirakı ölkə maraqlarının, eləcə də sahəvi fəaliyyətlərə dəstəyin təmin olunması baxımından xüsusi əhəmiyyət kəsb edir. Həmçinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə qanunsuz radio-TV yayımının və tezliklərdən istifadənin qarşısının alınması və mövzunun mütəmadi olaraq BTİ-nin gündəliyində saxlanması baxımından ölkəmizin BTİ-nin hər iki qurumunda təmsilçiliyi xüsusi əhəmiyyət kəsb edir.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Beynəlxalq Şahmat Federasiyasının prezidenti ilə görüşüb

Oktyabrın 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Beynəlxalq Şahmat Federasiyasının prezidenti Arkadi Dvorkoviç ilə görüşüb.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Naxçıvanda 16 yaşadək yeniyetmələr arasında Ümumdünya Şahmat Olimpiadasının keçirilməsinə verilən dəstəyə görə təşəkkür ifadə olunub, Naxçıvan Muxtar Respublikasında şahmatın inkişafı sahəsində görülən işlər və bu idman növünün kütləviləşməsi ilə bağlı həyata keçirilən tədbirlərdən danışılıb, olimpiadanın yüksək səviyyədə təşkil edildiyi bildirilib.

Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov və Azərbaycan Şahmat Federasiyasının prezidenti Mahir Məmmədov görüşdə iştirak ediblər.

# Naxçıvanda 16 yaşadək yeniyetmələr arasında Ümumdünya Şahmat Olimpiadasının açılış mərasimi keçirilib

Ümumdünya Şahmat Federasiyası Naxçıvan şəhərində 16 yaşadək yeniyetmələr arasında Ümumdünya Şahmat Olimpiadasının keçirilməsi ilə bağlı qərar verib, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2022-ci il 21 iyun tarixli sərəncamına əsasən olimpiadanın keçirilməsi üzrə Təşkilat Komitəsi yaradılıb, olimpiadaya hazırlıq işləri başa çatdırılıb.






Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, oktyabrın 2-də Naxçıvan Dövlət Milli Dram Teatrında 16 yaşadək yeniyetmələr arasında Ümumdünya Şahmat Olimpiadasının açılış mərasimi keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Beynəlxalq Şahmat Federasiyasının prezidenti Arkadi Dvorkoviç, Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov və Azərbaycan Şahmat Federasiyasının prezidenti Mahir Məmmədov açılış tədbirində iştirak ediblər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərində 16 yaşadək yeniyetmələr arasında Ümumdünya Şahmat Olimpiadasının açılışı münasibətilə olimpiadanın bütün iştirakçılarını təbrik edib, olimpiadada iştiraklarına görə şahmatçılara və qonaqlara təşəkkürünü bildirib, qələbə arzulayıb, 16 yaşadək yeniyetmələr arasında Ümumdünya Şahmat Olimpiadasını açıq elan edib.

Beynəlxalq Şahmat Federasiyasının prezidenti Arkadi Dvorkoviç olimpiadanın təşkilatçılarına təşəkkür edərək olimpiadada oyunların rəqabətli keçəcəyinə, yeni dostluqların yaranacağına əminliyini bildirib.

Azərbaycan Şahmat Federasiyasının prezidenti, Təşkilat Komitəsi sədrinin müavini Mahir Məmmədov çıxış edərək Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında şahmata göstərilən qayğıdan danışıb, muxtar respublikanın ümumtəhsil məktəblərində şahmatın məqsədyönlü tədrisini dünya səviyyəsində nümunə kimi dəyərləndirib, şahmatın inkişafı naminə görülən işlərə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq edib.

Beynəlxalq Şahmat Federasiyasının baş hakimi, o cümlədən olimpiadanın baş hakimi Freyd Loran olimpiadanın qaydaları haqqında məlumat verib. Bildirilib ki, 16 yaşadək yeniyetmələr arasında Ümumdünya Şahmat Olimpiadasında 23 ölkədən 200-ə yaxın şahmatçı iştirak edir. İştirakçılar arasında 50 titullu şahmatçının olması yarışların maraqlı keçəcəyini deməyə əsas verir.

Sonra olimpiadanın ən yüksək reytinqli şahmatçısı, iranlı Daneşvar Bardiya səhnəyə dəvət olunub və şahmat olimpiadasının püşkü atılıb.

Tədbirdə Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestrinin kollektivi konsert proqramı ilə çıxış edib.

# Latın Amerikasında "çəhrayı" dalğa böyüyür

## Əksər ölkələrdə güclü dəstəyə malik olmayan solçular hakimiyyətə gəlirlər

**Son 5 ildə Latın Amerikasının müxtəlif ölkələrində keçirilən prezident seçkilərində solçuların ard-arda qələbə qazanmaları diqqəti cəlb edən maraqlı məqamlardandır. Siyasi ekspertlər isə bu dalğanın yaranma səbəbini izah edərkən müxtəlif fikirlər səsləndirirlər.**




Əsasən qeyd edilir ki, bunun real səbəbi qlobal böhranların yaratdığı sosial-iqtisadi tənəzzül nəticəsində əhalinin üzləşdiyi çətinliklərdir. Yəni, ölkələrin əhalisi mövcud hakimiyyətlərdən narazılığını bu cür ifadə edir və solçuların vədlərinə inanırlar.

### Son 5 ildə solçuların qazandığı qələbələr

Öncə Latın Amerikasında son illərdə solçuların qazandıqları qələbələrə nəzər yetirək.

2018-ci il iyulun 1-də solçu "JHH" ("Birlikdə tarix yazacağıq") koalisiyasından namizəd Andres Manuel Lopes Obrador Meksikanın prezidenti seçilib. 2019-cu ildə Argentinada sol mərkəzçilər hakimiyyətə qayıdıb. 18 oktyabr 2020-ci il tarixdə Boliviyada keçirilən seçkilərdə keçmiş prezident Evo Moralesin tərəfdaşı, solçu MAS (Sosializmə doğru Hərəkat) partiyasının nümayəndəsi Luis Arce qalib gəlib. Ötən il iyunun 6-da Peruda prezident seçkiləri solçu namizəd Xose Pedro Kastilyo üçün qələbə ilə başa çatıb. Noyabrın 7-də Nikaraqua Sandinist Milli Azadlıq Cəbhəsinin lideri Daniel Orteqa növbəti prezidentlik müddətinə seçilib. Noyabrın 28-də solçu Azadlıq və Yenidənqurma Partiyasının namizədi Siomar Kastro Hondurasın ilk qadın prezidenti olub.

Dekabrın 19-da Latın Amerikasının bütün solçuları (xüsusən kommunist Kuba və Venesuela) Çilidə sosial dövlətin qurulmasının tərəfdarı, sol koalisiyanın namizədi Qabriel Boriçin tarixi qələbəsini qeyd ediblər. Bu il avqustun 7-də Kolumbiyanın iki yüzillik müstəqilliyi dövründə ilk dəfə olaraq ölkədə solçu hökumət hakimiyyətə gəlib. "Tarixi Pakt. Kolumbiya bacarır" solçu koalisiyasından olan 62 yaşlı sosialist Qustavo Petro həmin gün prezident vəzifəsinin icrasına başlayıb.

### Yeni dalğa Braziliyaya da çatdı

Oktyabrın 2-də Braziliya Federativ Respublikasında ümumi seçkilər keçirilib. Dünyanın 12-ci iqtisadiyyatı, ərazisinə görə 5-ci, əhalisinin sayına görə (217 643 743 nəfər) 6-cı olan ölkəsinin Ali Seçki Məhkəməsinin açıqladığı ilkin məlumata əsasən, Braziliyanın keçmiş lideri Luis İnasio Lula da Silva prezident seçkilərində əzəli rəqibi, hazırkı dövlət başçısı Jair Bolsonaruya 1 faizdən az səslə fərqlənib.

Lakin qazanılan nəticə birinci turda tam qələbə üçün kifayət etmir. Belə ki, Lula da Silva 44,42 faiz, Bolsonaru isə 43,84 faiz səs toplayıblar. Prezident seçilmək üçün isə 50 faizdən çox səs əldə etmək tələb olunur.

Beləliklə, Braziliyanın yeni liderini seçmək üçün oktyabrın 30-da ikinci tur keçiriləcək. Hazırda ölkədə iqtisadi vəziyyət çox mürəkkəbdir. Pandemiya zamanı stimullaşdırıcı xərclər və Rusiya Ukrayna münaqişəsindən sonra yaranan iqtisadi böhran bu ölkədə də inflyasiyanı və istehlak qiymətlərini artırıb. Son aylarda cüzi iqtisadi artıma baxmayaraq, ən ağır zərbə dolanışığını çətinliklə təmin edən aztəminatlı braziliyalılara dəyir. ANSA Latina informasiya agentliyinin xəbərinə görə, ölkə əhalisinin 60 faizi normal qidalana bilmir. Amma bir çox müşahidəçilərin fikrincə, prezident seçkiləri ilk növbədə Braziliya demokratiyasına dair bir növ referendum olacaq.

Nəhayət, 76 yaşlı Luis İnasio Lula da Silva yenidən prezident olarsa, bu, Latın Amerikasında inkişaf edən tendensiyanın davamı olacaq.

### "Tropiklərin Trampı"

Datafola İctimai rəy araşdırması institutunun keçirdiyi sorğunun nəticəsinə əsasən, Stiv Bannon da daxil olmaqla, ABŞ-ın sabiq lideri Donald Trampın strateqləri ilə əlaqələri olan 67 yaşlı Jair Bolsonaru, son illərdə siyasi spektrin mərkəzinə keçən və özünü Braziliya demokratiyasının müdafiəçisi kimi təqdim edən Latın Amerikasının solçu nəhəngi Luladan təxminən 10 faiz geri qalırdı. Braziliya mediasının tez-tez "Tropiklərin Trampı" adlandırdığı Bolsonarunun ritorikası onun siyasi etalonunun seçkiqabağı bəyanatları ilə üst-üstə düşürdü.

Liberal Partiyanın bayrağı altında namizədliyini irəli sürən prezident daha əvvəl seçkinin hər bir nəticələrini qəbul etməyə hazır olduğunu bildirib, ancaq bir şərtlə ki, səsvermə şəffaf olsun və səslərin sayılması prosesi ədalətli həyata keçirilsin.

Bir müddət əvvəl keçirilmiş sorğuya əsasən, braziliyalıların 37 faizi Bolsonarunun administrasiyasında və digər dövlət vəzifələrində çoxlu yuksəkrütbəli hərbçilərin olduğunu nəzərə alaraq onun çevriliş edə biləcəyinə inanır.

### Nəhəng solçu siyasətçi

Luis İnasio Lula da Silva 2003-cü ildən 2010-cu ilə qədər iki müddət Braziliya prezidenti olub. O, 2017-ci ildə korrupsiyada ittiham olunaraq həbs edilib. 2019-cu ilin noyabrında azadlığa buraxılıb və bəraət alıb, bu da onun hakimiyyətə mümkün qayıdışının yolunu açıb.

Prezidentlik dövründə ölkədə böyük populyarlıq qazanan siyasətçinin şöhrətinin zirvəsində onun reytinqi 86 faizi keçib və bir dəfə ABŞ-ın keçmiş prezidenti Barak Obama onu "Yer üzünün ən populyar siyasətçisi" adlandırıb.

Analitiklər razılaşırlar ki, Lula populyarlığını əsasən ölkədə tarixən hökm sürən və qismən nəticələrə nail olan əmlak bərabərsizliyinin aradan qaldırılmasına yönəlmiş və qismən nəticələr vermiş sosial proqramlara yatırılan milyardlarla dollar investisiya hesabına qazanıb. Bildirilir ki, onun hakimiyyəti dövründə minimum əmək-haqqı dərəcəsi inflyasiya sürətini çox üstələyirdi.

Qeyd edək ki, qitə ölkələrində "çəhrayı" adlanan dalğa getdikcə güclənir.

### Mövcud vəziyyətin əsas səbəbi nədir?

Amerikalı politoloq, Amerika Ənənələrin, Ailənin və Mülkiyyətin Müdafiəsi Cəmiyyətinin Vaşinqton Bürosunun direktoru Mario Navarro da Kostanın fikrincə, Latın Amerikasında mövcud vəziyyətin unikallığı ondadır ki, sollar öz ölkələrində güclü dəstəyə malik olmadan seçkilərdə qalib gəlirlər.

Hər bir ölkədə, hətta Venesuelada belə, ictimai rəy sorğuları əhalinin əksəriyyətinin kommunist və ya sosialist baxışlarına qətiyyən bağlı olmadığını göstərir. Yəqin ki, hakimiyyət orqanlarının COVID-19 pandemiyasının öhdəsindən gələ bilməməsi fonunda xroniki yoxsulluqdan və bəzi ölkələrdə cinayətkarlıqdan bezmiş əhali, sadəcə olaraq, başqa alternativ görmür.

Vaşinqton Siyasət Araşdırmaları İnstitutunun aparıcı analitiki Con Kavana isə fərqli fikirdədir. O, solçuların qələbələrinin əsas səbəbini onda görür ki, Latın Amerikası ölkələrinin solçu partiya və hərəkatlarında regiondakı vəziyyətə yeni baxışı olan, ən kəskin problemlərin həllinə yeni üsullarla yanaşan, siyasi texnologiyalar vasitəsilə mübarizə aparan siyasətçilər nəsli gəlib. Onların ideologiyasını artıq "qırmızı" adlandırmaq olmaz. Onların marksizm ideyalarını həyata keçirmək, bazar iqtisadiyyatı çərçivəsindən kənara çıxmaq niyyəti yoxdur. Beləliklə, onların sosializmi daha çox "çəhrayı" rəngə malikdir. Yeni solçu liderlərin seçicilərin gözündə cəlbedici olmasının sirri onların ümumi əhalinin, xüsusən də gənclərin psixologiyasını daha yaxşı başa düşmələridir. Onlar ekologiyaya, insan hüquqlarının, o cümlədən qadınların, milli və cinsi azlıqların hüquqlarının müdafiəsi kimi problemlərə daha çox diqqət yetirirlər.

Bənzər proseslər iyirmi il əvvəl də Latın Amerikası siyasətində müşahidə olunurdu. Boqotadakı Javeriana Papa Universitetinin alimi Ana Moad hesab edir ki, bu, bir növ Latın Amerikası ənənəsidir: "Bizdə bu sol dalğa hələ 2000-ci illərdə, Lula Braziliyanın prezidenti olanda var idi. Ancaq indi baş verənlər tamamilə fərqlidir".

Onun fikrincə, hazırda 2000-ci illərin əvvəlləri ilə birbaşa paralellər aparılmamalıdır. Hakimiyyətə gələn sol mərkəzçilər gender bərabərliyi və iqlim dəyişikliyi məsələlərini öz kampaniyalarının əsas mövzusu seçən yeni nəslin lideridir.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Moskvada 2-ci Xəzər İqtisadi Forumu keçiriləcək

Oktyabrın 5-6-da Moskvada 2-ci Xəzər İqtisadi Forumu keçiriləcək.

AZƏRTAC xəbər verir ki, forumda Xəzəryanı dövlətlərin Baş nazirləri iştirak edəcəklər. Forumda Xəzər ətrafındakı dövlətlərin iqtisadi əməkdaşlıq, nəqliyyat-tranzit əlaqələri müzakirə ediləcək. Regionda cərəyan edən prosesləri nəzərə alaraq, Xəzər dənizində təhlükəsizlik məsələləri də nəzərdən keçiriləcək.

Forumda İranı Birinci vitse-prezident Məhəmməd Mühbirin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edəcək.

## Tərtərdə pambıq yığımına başlanılıb

Tərtər rayonunda pambıq yığımına başlanılıb. Tərtər pambıqçıları əvvəlki illərdə olduğu kimi, bu ili də yüksək göstəricilərlə başa vurmağı qarşıya məqsəd qoyublar.



Bu il Tərtər rayonu ərazisində 3450,7 hektarda pambıq becərilib. Pambıq istehsalçıları becərmə zamanı lazımi texnika, toxum, gübrə və kimyəvi preparatlarla tam təmin olunublar. Sahələrə göstərilən düzgün aqrotexniki tədbirlər - kultivasiya, seyrəltmə, gübrələmə, suvarma işlərinin, zərərvericilərə qarşı dərmanlama tədbirlərinin vaxtlı-vaxtında həyata keçirilməsi nəticəsində bu il də tarlalarda bol məhsul yetişib.

Yığımın ilk günlərində 227,53 ton məhsul toplanıb. Yığılan məhsul "MKT İK" MMC-nin Tərtər filialına və "Azərpambıq" MMC-nin Tərtər pambıq tədarükü məntəqəsinə təhvil verilir.

Ötən il rayonda 3440 hektar sahədə pambıq əkilib, hər hektardan 31,1 sentner olmaqla, ümumilikdə, 10 min 701,5 ton məhsul istehsal edilib.

## OPEC+ gündəlik hasilatın həcmini azaldacaqmı?

Oktyabrın 5-də OPEC+ ölkələrinin Vyanada növbəti toplantısı keçiriləcək. Mətbuata sızan məlumatlara görə, iclasda gündəlik hasilatın bir milyon barel azaldılması barədə qərar qəbul edilə bilər.




AZƏRTAC xəbər verir ki, hasilatın azaldılması fikri dünya bazarlarında xam neftin qiymətinin düşməsi ilə əlaqələndirilir. Təklifin aşağı düşməsinin qiymətlərə müsbət təsir göstərəcəyi ehtimal olunur.

Əgər hasilatın həcminin göstərilən miqdarda azaldılması barədə qərar verilərsə, bu, koronavirus pandemiyası başlayandan ən böyük həcmdə ixtisar ola bilər.

## Xaçmazda torpaq kanal beton üzlüyə alınır

Ölkəmizin ən böyük kənd təsərrüfatı rayonlarından olan Xaçmazda fermerlərin suvarma suyu ilə təminatı istiqamətində tədbirlər davam etdirilir.

Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətindən bildirilib ki, rayon ərazisində suvarılan torpaqların ümumi sahəsi 50 min 290 hektardır. Bu torpaq sahələri kanallar, çaylar, qara sular və bir qismi də artezian suları ilə suvarılır. Su mənbələri isə Samur-Abşeron və Xan arxı kanalıdır. Su istehlakçılarının keyfiyyətli suvarma suyu ilə təmin etmək məqsədilə 2 min metr uzunluğunda torpaq kanal hazırda beton üzlüyə alınır.

Yeni beton kanalların çəkilməsi fermerlərin də işini xeyli asanlaşdırır. Bağ və sahələrin vaxtında suvarılması həm də məhsuldarlığın yüksəldilməsinə təsir edir. Bununla yanaşı, rayon ərazisindən keçən çayların daha çox təhlükə gözlənilən hissələrində daşqın və selə qarşı mübarizə tədbirləri görülərək çay məcraları tənzimlənir, sahilqoruyucu və su istiqamətləndirici bəndlər qurulur.

Qeyd edək ki, Xaçmaz rayonunda sahələri suvarmaq üçün 2 min 180 kilometr uzunluğunda təsərrüfatdaxili və təsərrüfatlararası suvarma kanalından istifadə olunur. Bu kanalların 1790 kilometri torpaq 220 kilometri isə beton məcralıdır. Ötən il rayon ərazisində 3 min metrdən artıq torpaq məcralı kanal beton üzlüyə alınıb.






# Bolqarıstan-Yunanıstan İnterkonnektoru Şərqi Avropa üçün də önəm daşıyır




## Prezident İlham ƏLİYEV: "Əlimizdən gələni edirik ki, tərəfdaşlarımızı təbii qazla təmin edək"

**Ölkəmiz uzun müddətdir beynəlxalq bazarda, ilk növbədə isə Avropada etibarlı neft təchizatçısı kimi tanınır. Son illər Azərbaycan artıq həm də qaz təchizatçısı kimi rəğbət qazanıb. Nəhəng ixrac infrastrukturu, Avropanın enerji xəritəsini dəyişən "Cənub qaz dəhlizi"nin təşəbbüskarı və aparıcı qüvvəsi məhz Azərbaycandır və biz bununla haqlı olaraq qürur duyuruq.**

Bu gün ölkəmizdən Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliya mavi yanacaq idxal edir. Gürcüstana qaz Cənubi Qafqaz Boru Kəməri ilə çatdırılır. Türkiyə Azərbaycan qazını Bakı-Tbilisi-Ərzurum kəməri və TANAP-la (Trans-Anadolu Qaz Boru Kəməri) alır. Avropaya isə ölkəmizdən qaz nəqli 2020-ci il dekabrın 31-də "Cənub qaz dəhlizi"nin sonuncu seqmenti olan TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) işə düşməsi ilə başlayıb. Yeni çağırışlar qarşısında Azərbaycan qazına tələbat artır. Bir neçə gün əvvəl Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) istifadəyə verilməsi bunun aydın təzahürüdür.

Prezident İlham Əliyevin Bolqarıstan Respublikasına rəsmi səfəri çərçivəsində IGB-nin açılışında iştirak etməsi bu hadisənin önəminə bir daha diqqət çəkir.

Xatırladaq ki, Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun ümumi uzunluğu 182 kilometrdir. Bu kəmər Bolqarıstanın və Yunanıstanın qaz nəqli şəbəkələrini birləşdirir. Layihə 2011-ci ildə Bolqarıstanda qeydiyyatdan keçmiş Bolqarıstan-Yunanıstan "ICGB AD" investisiya şirkəti tərəfindən Bolqarıstanın Enerji Holdinqi və Yunanıstanın "IGI Poseidon" şirkətinin səhmdarları ilə birlikdə gerçəkləşdirilir və onların hər biri 50 faiz iştirak paya malikdir.

İnterkonnektorun ümumi dəyəri 240 milyon avrodan çoxdur. Avropa Komissiyası 2010-cu ildə texniki-iqtisadi əsaslandırmalar üçün 45 milyon avro qrant yardımı və Bolqarıstanın həyata keçirdiyi proqram çərçivəsində 35 milyon avro məbləğində daha bir ödəniş ayırıb. Avropa İnvestisiya Bankı isə 110 milyon avro kredit verib.

IGB Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan təbii qazı Bolqarıstana çatdıracaq. Bu məqsədlə Bolqarıstanın "Bulgargaz EAD" dövlət şirkəti "Şahdəniz" konsorsiumu ilə müqavilə imzalayıb. Boru xəttinin illik ötürmə gücü 3 milyard kubmetr təşkil edəcək. Gələcəkdə həmin göstərici ildə 5 milyard kubmetrədək artırıla bilər. Beləliklə, Azərbaycan təbii qazı Bolqarıstanın mavi yanacağa tələbatının 25-30 faizini ödəyəcək.

İnterkonnektorun açılış mərasimindəki çıxışında dövlətimizin başçısı Azərbaycan qazının ixracı və onun potensialı məsələrinə toxunaraq demişdir: "Ötən il qaz ixracımız təxminən 19 milyard kubmetr təşkil etmişdir. Onun 8,2 milyard kubmetri Avropaya nəql olunmuşdur. Bu isə əvvəlki illə müqayisədə 40 faiz artım deməkdir. Bu il biz ixracımızı 22 milyard kubmetrə qədər artıracağıq və onun 11,5 milyard kubmetri Avropa istehlakçılarına çatdırılacaqdır. Artıq söylədiyim kimi, bu ilin iyul ayında biz xanım Prezident Ursula Fon der Lyayenin Azərbaycana səfəri zamanı Avropa Komissiyası ilə Anlaşma Memorandumu imzaladıq. Bu, çox əhatəli sənəddir, ona əsasən, 2027-ci ilə qədər biz təbii qazın təchizat həcmini ən azı iki dəfə artırmağı planlaşdırırıq və bunu etməyə tam potensialımız var. Biz TANAP-ın 16 milyard kubmetrdən 32 milyard kubmetrə, TAP-ın isə 10 milyard kubmetrdən 20 milyard kubmetrə qədər genişləndirilməsi ilə bağlı tərəfdaşlarımızla artıq məsləhətləşmələrə başlamışıq. Çünki bu olmadan əlavə təchizatı təmin etmək çətin olacaq".

Əlavə təchizat isə zərurətə çevrilir. Hazırda bir sıra ölkələr qaza olan yüksək tələbat və enerji böhranı şəraitində yeni imkanlar axtarışındadır. İnterkonnektorun açılışının əvvəlki günü geniş tərkibdə görüş başa çatandan sonra Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin mətbuata bəyanatında dedikləri də bunu təsdiqləyir: "Həmin interkonnektor - bu strateji layihə həm bizim ölkə, həm də Şərqi Avropa üçün çox mühüm layihədir. Bu interkonnektor bizə, ilk dəfə olaraq, Azərbaycandan təbii qaz almağa imkan verəcək. Bu, təbii ki, Avropanın enerji xəritəsini dəyişdirəcək. Bu, elə bir infrastruktur layihəsidir ki, biz təkcə ölkələrimiz arasında deyil, bütün regionda iqtisadi əməkdaşlığı inkişaf etdirə biləcəyik. Həmin bu layihə vasitəsilə biz strateji tərəfdaşlığımızı bir daha təsdiq edirik".

Bolqarıstan Prezidenti daha bir vacib məsələni də diqqətə çatdırıb: "Bolqarıstandan əlavə Avropanın daha 3 ölkəsi - Rumıniya, Macarıstan və Slovakiya bizə müraciət edib ki, əlavə qaz həcmini almaq və nəql etmək istəyirlər. Bu ilin yayında - iyul ayında cənab Əliyev və xanım Fon der Lyayen sənəd imzalayıblar. Həmin sənədə əsasən, yeni yanaşma tətbiq edilməlidir. Bunun sayəsində biz illərlə gözləmək əvəzinə, - bilirsiniz ki, burada mövcud infrastrukturu genişləndirmək üçün böyük sərmayə lazımdır, - həmin bu 4 ölkədə olan infrastruktur vasitəsilə Azərbaycan qazını dərhal digər ölkələrə göndərə bilərik. Beləliklə də qaz daha tez və etibarlı şəkildə Mərkəzi, Qərbi və Cənubi Avropaya çatdırıla bilər".

Qeyd edək ki, Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Bu gün "Cənub qaz dəhlizi"nin ehtiyat mənbəyi yalnız "Şahdəniz" olsa da, yaxın gələcəkdə ona digər yataqların da qoşulacağı gözlənilir. Ölkəmiz həmçinin müasir və çoxşaxəli qaz nəqliyyatı infrastrukturuna malikdir. Bu da bir sıra ölkələri mavi yanacaqla təmin etməyə imkan verir. Qısa müddət ərzində bu sahədə qazanılmış təcrübə və əldə edilmiş uğurlar sabahın daha böyük işləri üçün də möhkəm zəmindir. Prezidentimiz bütün bunları nəzərə alaraq demişdir: "Enerji təhlükəsizliyi məsələləri bütün dövrlərdə mühüm əhəmiyyət kəsb edir, ancaq indiki şəraitdə bu əhəmiyyət daha da artmışdır. Biz bunu yaxşı dərk edirik. Ona görə əlimizdən gələni edirik ki, qaz hasilatını artıraq və tərəfdaşlarımızı təbii qazla təmin edək".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Vahid əlaqələndirmə mərkəzlərində 56 mindən çox şəxsə xidmət göstərilib

Prezident İlham Əliyevin 25 iyun 2021-ci il tarixli fərmanı ilə yaradılan Vahid əlaqələndirmə mərkəzlərində ötən dövrdə 56 mindən çox şəxsə xidmət göstərilib.

Mərkəzlərdə şəhid ailələrinin üzvləri, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçular və əlilliyi müəyyən edilmiş şəxslərə əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza və reabilitasiya, müalicə, müayinə və s. üzrə xidmətlər təqdim edilir.

Hazırda Bakı şəhərindəki və Abşeron rayonundakı DOST mərkəzlərində, həmçinin Gəncə şəhərində, Masallı, Ucar, Şəmkir, Qusar və Salyan rayonlarında ümumilikdə 48 rayon və şəhər üzrə xidmət göstərən 11 vahid əlaqələndirmə mərkəzi fəaliyyət göstərir.

Bu mərkəzlərdə 53 qurum üzrə 26 istiqamətdə xidmətlər "bir pəncərə"dən, operativ və şəffaf, vətəndaş məmnunluğu prinsipi əsasında təqdim edilir.

Həmin qurumların sırasına Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Müdafiə Nazirliyi, Səhiyyə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və 48 rayon (şəhər) icra hakimiyyəti daxildir.

## Azərbaycan və Türkiyə Körfəzin ərəb ölkələrinin dəmir yolu layihəsində mühüm rol oynaya bilər

Müasir dünyada bir sıra dövlətlər idman diplomatiyası, iqlim diplomatiyası və virtual diplomatiya kimi bir-biri ilə münasibətlərini qurmaq və beynəlxalq imicini yaxşılaşdırmaq istiqamətində qeyri-ənənəvi vasitələrdən istifadə etməyə başlayıb.

Bu vasitələrdən biri də kollektiv iqtisadi mənfəət üçün polad relslər şəbəkəsi yaratmaqla, dövlətlər arasında münasibətlərin qurulmasında həlledici vasitə olan dəmir yolu diplomatiyasıdır. Bunun daha bir bariz nümunəsi Körfəz Ərəb Dövlətləri Şurasına (KƏDŞ) üzv dövlətləri - Küveyt, Qətər, BƏƏ, Bəhreyn, Oman və Səudiyyə Ərəbistanını birləşdirməyi nəzərdə tutan dəmir yolu layihəsidir.

İki qardaş ölkə - Azərbaycan və Türkiyənin də Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu layihəsi vasitəsilə həyata keçirdiyi dəmir yolu diplomatiyası bu kontekstdə mühüm rol oynayacaq. Belə ki, BTQ ölkələrimizi




KƏDŞ-in dəmir yolu layihəsi ilə birlikdə Çindən Oman sahilinədək birləşdirəcək haba çevirə bilər.

KƏDŞ-in dəmir yolu layihəsi 2001-ci ildə elan edilib və 2009-cu ildə təsdiqlənib. Lakin Yaxın Şərq regionunda qeyri-müəyyənlik və münaqişələr səbəbindən 2021-ci ilədək həyata keçirilməsi mümkün olmayıb. Ötən il KƏDŞ-ə üzv olmayan dövlətlərin də layihəyə daxil edilməsi ilə ərəb dövlətləri liderlərinin Zirvə görüşündə Körfəz ölkələri Dəmir Yolları İdarəsi təsis edilib və bu prosesə start verilib. Artıq Səudiyyə Ərəbistanı, Oman və BƏƏ-ni birləşdirən 15 milyard dollarlıq 2200 kilometr uzunluğunda olan dəmir yolunun birinci mərhələsinin 2023-cü ildə istifadəyə verilməsi gözlənilir. Layihənin Küveyt və Bəhreyni birləşdirəcək ikinci mərhələsinin isə 2025-ci ilə qədər başa çatdırılması nəzərdə tutulur.

Nəqliyyat üzrə ekspertlər hesab edirlər ki, bu layihənin aşkar faydalarına baxmayaraq, bir sıra problemlər meydana çıxa bilər və regional maraqların milli maraqlardan üstün olmasını təmin etmək üçün daha sıx əməkdaşlığa ehtiyac duyulur.

Yaxın tarixə nəzər saldıqda, 2010-cu ildə İraq körfəzini Suriya və Türkiyə vasitəsilə Avropaya birləşdirəcək 60 milyard dollarlıq dəmir yolu layihəsi planlaşdırılmışdı. Lakin 2011-ci ildə Suriyada başlayan vətəndaş müharibəsi Bağdadın planlarını pozdu. Bundan sonra Körfəzin ərəb ölkələri bu layihəni yenidən nəzərdən keçirib və bu müzakirələrdə yenidən Türkiyənin əhəmiyyəti gündəmə gəlib.




# Zəfər balı

## Arıların "evsahibliyi" etdiyi yarmarkadan reportaj

**Bakıda arıçılıq məhsullarının XXII Respublika Sərgi-Satış Yarmarkası fəaliyyətə başlayıb. Yarmarkada 14 iqtisadi zonanın 47 rayonundan 250 arıçı 120 ton məhsul satışa çıxarıb. Hər arıçı maksimum 400 kiloqram bal və 30 ədəd arı şanı sata bilər.**














Arıçılar oktyabrın 20-dək davam edəcək yarmarkaya ilboyu çəkdikləri əziyyətlərinin bəhrəsini görməyə gəliblər. Ona görə də bu müddət ərzində dillərini şirin etməlidirlər ki, ballarını sata bilsinlər. Necə deyərlər, bal arını çəkər, şirin dil insanı...

Piştaxtalara dağ, yaylaq, çəmən balları və cürbəcür arıçılıq məhsulları düzülüb. Arıçılar maraqlı tərzləri və şirin şivələri ilə öz müştərilərini səsləyirlər. Zənnimiz bizi yanıltmır və aydın olur ki, bu il paytaxta müxtəlif arıçılıq məhsulları bütün bölgələrdən gətirilib. İlk dəfədir ki, yarmarkada bütün iqtisadi zonaların iştirakı təmin edilib.

### Ölkədə bal istehsalı artıb

Arıçıların adətən işlərinin bilicisi olmaları, onların bala və bal arılarına sevgisi haqqında çox eşitmişik. Əbəs yerə deyilməyib ki, arıçı yalnız işini sevdiyinə görə arıçıdır. Arıları toplamaq, bəsləmək, onları yemləmək əsl zəhmət tələb edən işdir.

Zəhmətkeş arıçıların sayəsində ölkədə bal istehsalı hər il artır. Əvvəlki illərdə hər arı ailəsinin payına 8-10 kiloqram bal düşürdüsə, 2022-də orta məhsuldarlıq 15 kiloqramı ötüb.

Satışa çıxarılan balların qiyməti növünə və istehsal edildiyi bölgəyə görə dəyişir. Yarmarkada balın bir kiloqramı 25-50 manata təklif edilir. Kiloqramı 50 manata satılan ən bahalı məhsul isə Kəlbəcər və Laçın bölgələrindən gətirilmiş yaylaq, çiçək və meşə ballarıdır. Qeyd edək ki, "bal yarmarkası"nda ilk dəfədir ki Şərqi Zəngəzur iqtisadi zonasından məhsul satışa çıxarılıb. Hazırda arıçılıq təsərrüfatı üçün əverişli olan işğaldan azad edilmiş ərazilərdə, xüsusilə də Kəlbəcər, Laçın və Qubadlı rayonlarında 61 mindən çox arı ailəsi mövcuddur.

### Prezidentə bal hədiyyə edən arıçı

Gözümüzdən yayınmır ki, arı çiçək görəndə sevinən kimi, arıçılar da alıcıları görüb çox sevinirlər. Hamısı qaşığın ucuna dadımlıq bal qoyub müştərilərə təklif edir, "heç yerdə belə bal görməmisiz" deyib alıcı cəlb edirdilər.

Onların arasında ötən il avqustun 16-da Prezident İlham Əliyevin Kəlbəcər səfərində ona bal hədiyyə edən arıçı Sabir Mustafayev də var. 28 ildən sonra Kəlbəcərə ilk arı köçünü reallaşdıran arıçı bu il yarmarkada məhz Kəlbəcər dağlarında və yaylaqlarında süzülmüş ballarını satışa çıxarıb. Ömrünün 40 ilindən çoxunu arıçılığa sərf edən Sabir Mustafayevin sözlərinə görə, doğma torpaqlarında keçən iki il çox məhsuldar olub, yüzlərlə arı ailəsini artırmağa nail olub.

"Kəlbəcər arıçılıq üçün ən əlverişli yerlərdən biridir. Buranın bitki örtüyü elə zəngindir ki, bal da dadlı və keyfiyyətli olur. İşğaldan azad edilmiş digər rayonlarla müqayisədə Kəlbəcərdə vəziyyət daha yaxşıdır. Təbiətin uzun müddət diqqətdənkənar qalmasına baxmayaraq, burada hələ də müxtəlif növ çiçəklər yetişdiyinə görə arıçılıq üçün münbit şərait var. Növbəti illərdə daha çox məhsul götürəcəyimizə əminik, çünki Kəlbəcərin dağları da, meşələri də bilir ki, doğmaları qayıdıb öz yerlərinə. Qoy vəziyyət düzəlsin, ailəmlə öz yurduma köçüb yaşayacam, Kəlbəcər dağlarında şad-xürrəm bal kəsəcəm", - deyə S.Mustafayev bildirdi.

Arıçı qeyd etdb ki, satışa çıxardığı məhsulların ən bahalısı Kəlbəcər yaylağında süzülmüş baldır. Yaylaq balının bir kiloqramı 50 manata, Kəlbəcərin yaylaqda yetişdirilməyən balı isə 35-45 manata təklif edilir.

Ümumiyyətlə, yarmarkada məhsulların qiyməti arıçıların öhdəsinə buraxılıb. Nəzərə almaq lazımdır ki, növündən asılı olaraq arıçılıq məhsullarının maya dəyəri də bir-birindən fərqlənir. Vətəndaşlar ağız dadlarına və büdcələrinə uyğun istədikləri məhsulu əldə edə bilərlər.

### Əsl arıçının satdığı bal xalis olar...

Alıcı Səkinə Yusifova ona təklif edilən balların dadına baxır və zövqünə uyğun seçim etməyə çalışır. Deyir ki, yarmarkada saxta bal satılmadığına inanır.

"Artıq bir neçə ildir ki, yarmarkadan əsasən Astara və Şəki balı alıram. Əslində, bal alarkən ən çox diqqət etdiyim istehsal edildiyi məkan yox, balın keyfiyyətidir. Könlümə düşüb ki, bu il Qarabağ və Şərqi Zəngəzur məhsullarından dadım. Ümumiyyətlə, yaxşı bal yemək istəyirsənsə, gərək əlin cibində olsun. Saxta balla təmiz balı elə də fərqləndirməyi bilməsəm də, ağız dadıma güvənirəm. Ləzzətindən bilirəm ki, xalis baldır", - deyə alıcı qeyd edir.

Arıçılar da bildirirlər ki, saxta balla xalisini bir-birindən fərqləndirməyin müxtəlif yolları deyilsə də, onların əksəriyyəti doğru deyil. Saxta balı əsasən xüsusi laboratoriya şəraitində müəyyən etmək mümkündür. Adətən saxta balın ətri olmur. Amma bəzi bitkilər var ki, onlardan çəkilmiş balların da ətri hiss edilmir. Yarmarkadakı arıçıların əksəriyyəti isə o fikirdədirlər ki, ölkədə istehsal edilən ballar adətən saxta olmur. Saxta ballara xaricdən idxal edilənlər arasında daha çox rast gəlinir.

Arıçılar narazılıq edirlər ki, alıcılar bal haqqında az məlumatlıdırlar. Arıçı Pərvin gileyini də bildirir: "Elə bilirlər ki, bal xarlanıbsa, deməli, tərkibində şəkər tozu var. Axı elə deyil...Nə qədər demək olar ki, təmiz bal xarlanmalıdır?!"

Cavan bir arıçı da söhbətimizə qoşulur. Deyir, alıcı bala yox, gərək elə balı satanın kim olduğuna diqqət etsin ki, aldığı bal da saxta çıxmasın. Qazancından asılı olmayaraq, əsl arıçının satdığı bal həmişə xalis olar...

### "Hələ bu harasıdır, heç bir qaşıq da qalmayacaq!"

Arıçı Rüfət Mehdiyev də yarmarkaya üz tutanlara qaşıq-qaşıq bal uzadır. Deyir, yalan olmasın, gün başlayandan xanımlara bəlkə 1 kiloqram bal yedirtmişəm.

R.Mehdiyev təkcə bal yox, həm də digər arıçılıq məhsullarını da satır. Deyir ki, arıçılıq məhsullarından yalnız mətbəxdə yox, xalq təbabətində də geniş istifadə edilir. Bal biostimullaşdırıcıları sağlamlığı qoruyur, orqanizmin immun sistemini gücləndirir. Baldan və digər arı məhsullarından hazırlanan dərmanlar təbii antibiotik hesab edilir. Yarmarkada satışa çıxardığım belə məhsullar arasında çiçək tozu, arı südü, güləm, vərəmum, mum güvəsinin və arı ölüsünün cövhəri və s. var. Bu məhsullar vitaminlər, mineral maddələr, karbohidrat və zülallarla zəngindir. Ən bahalı arıçılıq məhsulu isə ən yüksək qida dəyərinə malik olan arı südüdür. Belə məhsullar əsasən tibbi məqsədlərlə kosmetologiya və fitoterapiya ilə məşğul olan həkimlər tərəfindən alınır.

Elə söhbət əsnasında gənc oğlan yaxınlaşıb arı südü ilə maraqlanır:

- Dadına baxa bilərəm?

-Yox, təəssüf.

- Niyə, balın dadına baxırıq, südünə niyə baxmayaq?!

- Qardaş, bu arı südüdür e... Qramı 25 manatdır, alırsan?

- Yox, bir qram arı südü alınca, elə bir kiloqram bal alıb hər səhər yeyərəm", - deyib piştaxtadan uzaqlaşır.

Arıçı yenə gileylənir: "Görürsüz, arı südünün min bir dərdə dərman olduğunu bilmirlər. Bilirsiz, necə faydalıdır! Həm də çox dadlıdır".

Söhbətlərinə, ballarına doyum olmayan arıçılardan ayrılmaq vaxtı çatır. Başımızın üstündə dolaşan arılar bizi yola salırlar. Maraqlıdır ki, bu arılar yarmarka boyu heç bizə dəyib dolaşmadılar. Yaşlı bir arıçı uzaqdan bizi səsləyir "Qızım, qorxma, yəqin Qarabağ arılarıdır. Onlar qonağa da, doğmaya da necə yanaşmaq lazım olduğunu yaxşı bilirlər. Xoş gəldin, xoş gedirsən!"

***Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"***

# AzMİU ilə Türkiyənin Bilkent Universiteti əməkdaşlıq müqaviləsi imzalayıb

Türkiyənin Bilkent Universitetinin rektoru, professor Kürşat Aydoğan, prorektor Ezhan Karaşan və Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil müşaviri Nəcibə Nəsibova Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) olublar.



Qonaqları salamlayan AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova Ulu Öndər Heydər Əliyevin Bilkent Universitetinin qurucusu, türk dünyasının şöhrətli alimi, professor İhsan Doğramacı ilə dərin dostluq əlaqəsinə diqqət çəkib və bu dostluğun nəticəsində bu universitetin Azərbaycan üçün doğmalaşdığını vurğulayıb. İhsan Doğramacının sağlığında Bilkent Universitetinə səfərini xatırladan rektor qeyd edib ki, yaxın əlaqələr iki universitet arasında başladılan əməkdaşlığın sürətli inkişafına yol açacaq.

Bilkent Universitetinin rektoru, professor Kürşat Aydoğan da çıxışı zamanı Ümummilli Lider Heydər Əliyevlə professor İhsan Doğramacının yaxın dostluq əlaqələrindən danışıb. O, AzMİU rektoruna İhsan Doğramacının Bilkent Universitetinin ərazisindəki abidəsinin təməlqoyma mərasimində Ulu Öndərin lentə alınan fotosunu hədiyyə edib. Professor Kürşat Aydoğan AzMİU ilə əməkdaşlıqdan məmnun olduqlarını, əlaqələrin gücləndirilməsi üçün qarşılıqlı səfərlərin həyata keçirilməsinin vacibliyini qeyd edib.

Universitetin prorektoru, professor Ezhan Karaşan və Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil müşaviri Nəcibə Nəsibova da çıxış edərək iki universitet arasında yeni başladılan əməkdaşlığın önəmindən danışıblar.

Sonra AzMİU və Bilkent Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Müqaviləni AzMİU-nun və Bilkent Universitetinin rektorları imzalayıblar.

Müqavilədə hər iki universitetin akademik heyət, tələbə və tədqiqat qrupları arasında əməkdaşlıq niyyətinin olduğu qeyd edilib. Bundan əlavə, universitetlər qarşılıqlı maraq çərçivəsində bir sıra prinsip üzrə razılığa gəliblər.

Daha sonra qonaqlar AzMİU-nun tədris korpusları və elmi-tədqiqat laboratoriyaları ilə tanış olub, professor-müəllim heyəti, tələbələrlə söhbət ediblər.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Lənkəran Dövlət Universiteti açıq tender elan edir

**Tender 1 LOT üzrə keçirilir:**

Lənkəran şəhəri, H.Abdullayev küçəsi, 19 ünvanda yerləşən Lənkəran Dövlət Universitetinin 2-ci tədris korpusunda yeni 5 mərtəbəli tədris binasının xarici elektrik təchizatı işlərinin satın alınması.

Tender iştirakçıları **https://www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. İxtisas uyğunluğunun müəyyənləşdirilməsində analoji işlərdə təcrübə, maliyyə vəziyyəti, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri potensial meyarlara üstünlük veriləcəkdir.

İştirak haqqının ödənilməsi yalnız "ASAN ödəniş" vasitəsilə həyata keçirilə bilər. Portal üzərindən müsabiqəyə daxil olduqdan sonra "ASAN ödəniş et" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

**İştirak haqqı - 250.00 (iki yüz əlli) AZN**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).*

*2. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 45 bank günü qüvvədə olmalıdır).*

*3. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

*4. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (arayış 2022-ci ilin sentyabr-oktyabr ayları ərzində verilmiş olmalıdır və malgöndərənin öz öhdəliklərini yerinə yetirmək üçün potensial imkana malik olmasını təsdiq etməlidir, həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır).*

*5. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2021-ci il üzrə).*

*6. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); Bank arayışı 2022-ci ilin sentyabr-oktyabr ayları ərzində verilmiş olmalıdır.*

*7. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (iddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV və mövcud sertifikatlar).*

*8. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması; Malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti (sənədin notarial qaydada təsdiq edilməsi mütləqdir).*

*9. Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).*

*10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması. Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır (Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2022-ci ilin sentyabr-oktyabr ayları ərzində verilmiş olmalıdır.*

*11. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması; Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır (Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2022-ci ilin sentyabr-oktyabr ayları ərzində verilmiş olmalıdır.*

*12. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi; Məhkumluq haqqında arayış (DİN və ya "ASAN xidmət" mərkəzlərindən).*

*13. Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazə.*

*14. Digər müvafiq sənədlər (Əsas şərtlər toplusunda müəyyən edilmiş müvafiq sənədlər).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasın Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **24 oktyabr 2022-ci il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını isə **1 noyabr 2022-ci il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **2 noyabr 2022-ci il saat 17:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***Qeyd:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

## Azərbaycan Dövlət Dəniz Akademiyası üçün qaynaq texnologiyası və avadanlığı laboratoriyasının qurulması işlərinin satın alınması məqsədilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **adda.edu.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 24 oktyabr 2022-ci il saat 15:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1000 (indeks), Zərifə Əliyeva küç., 18, ADDA-nın əsas inzibati binası.**

**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 3042.**

***Tender komissiyası***

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

## "Dənizçi" MTK-nın balansında olan yaşayış binalarına mətbəx avadanlıqlarının quraşdırılması xidmətlərinin (mal-material və işçilik daxil) satın alınması məqsədilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 12 oktyabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.**

**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

# Hava əsasən yağmursuz olacaq

Azərbaycanda oktyabrın 4-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 19-21°, gündüz 25-28° isti, Bakıda gecə 19-21°, gündüz 26-28° isti olacaq. Atmosfer təzyiqi 762 millimetr civə sütunu, nisbi rütubət 55-65 faiz təşkil edəcək. Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 15-19°, gündüz 28-32° isti, dağlarda gecə 3-8°, gündüz 15-19° isti olacağı gözlənilir.

## Azercell

## abunəçilərinin nəzərinə

04 noyabr 2022-ci il tarixdən etibarən, "Azercell Telekom" MMC-nin fakturasız (SimSim) xətt sistemində abunəçilərə təqdim edilən "Bölgə" tarif paketi çərçivəsində "Limitsiz danışıq" kampaniyasının xidmət haqqı 0,45 AZN təşkil edəcək.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, həmçinin "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar (o cümlədən ""Limitsiz danışıq" kampaniyası") barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com<http://www.azercell.com/>), həmçinin Müştəri Xidmətlərinə (MX və ya Eksklüziv ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.

## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 06.10.2022-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklər yaranması mümkündür.

## "Azəraqrartikinti" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə

"Azəraqrartikinti" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının növbəti ümumi yığıncağı 24 noyabr 2022-ci il tarixdə saat 11:00-da cəmiyyətin Bakı şəhəri, Şəfayət Mehdiyev küçəsi, 93 saylı ünvanda yerləşən inzibati binasında keçiriləcəkdir.

**YIĞINCAĞIN GÜNDƏLİYİ**

1. Hesabat dövrü üçün cəmiyyətin fəaliyyətinin yekunlarının müzakirəsi və balansların təsdiqi (İdarə Heyətinin hesabatı).
2. Cəmiyyətin Maliyyə-təftiş komissiyasının hesabatı.
3. Cəmiyyətin səhmdarlarına veriləcək dividendlərin məbləğinin təsdiqi.
4. Digər məsələlər.

***"Azəraqrartikinti" ASC-nin Müşahidə Şurası***

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi respublika üzrə bir sıra məktəbəqədər təhsil müəssisələrinin əsaslı təmiri işlərinin satın alınması ilə bağlı *açıq tender elan edir*

**Respublika üzrə bir sıra məktəbəqədər təhsil müəssisələrinin əsaslı təmiri işlərinin satın alınması üçün açıq tender elan edir.**

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:
Əlaqələndirici şəxs - N.İsgəndərova.
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.
Tel: (+99412) 465 73 48 (daxili 134).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 1500,0 (bir min beş yüz) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. 01.10.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (01.10.2022-ci il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi oqranı, icra probasiya şöbəsi və ya müvafiq kommersya məhkəməsi tərəfindən təqdim olunmuş arayış);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 01.10.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçı baş podratçı kimi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *iddiaçının maddi texniki bazası (sifarişin yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *AZS İSO 9001:2020; AZS İSO 14001:2020, AZS İSO 45001:2020 sertifikatları;*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 60 (altmış) bank günü);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **07 noyabr 2022-ci il saat 11:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **17 noyabr 2022-ci il saat 17:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **18 noyabr 2022-ci il saat 15:00-da** Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən fevral ayına "Vest-İst Forvard" LLC-yə verilmiş 0063961 nömrəli bir ədəd "Rusiya Federasiyası 3-cü ölkə" (təmiz) icazə vərəqəsi itdiyi üçün etibarsız sayılır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## "Azərişıq" ASC Samux rayonu ərazisində yerləşən mövcud 110/35/10 kV-luq 2x31.5 MVA gücündə "İstilik Kombinatı" yarımstansiyasının 110/35/10 kV-luq 2x50 MVA gücündə yenidənqurulması işlərinin satın alınması məqsədilə açıq tender elan edir

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1: Samux rayonu ərazisində yerləşən mövcud 110/35/10 kV-luq 2x31.5 MVA gücündə "İstilik Kombinatı" yarımstansiyasının 110/35/10 kV-luq 2x50 MVA gücündə yenidənqurulması işlərinin satın alınması.**

İştirak haqqı - **850 manat**
"Azərişıq" ASC
Hesab: AZ83AIIB33020029441802068118
VÖEN: 9900069391
Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı
Kod: 200189
VÖEN: 9900003611
Müxbir hesab: AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs: Namiq Heybətov
Əlaqə telefonu (şəhər): 012 440 39 93 (daxili 92-19)
Elektron poçt: namiq.heybetov@azerishiq.az
Ünvan: Bakı şəhəri, M.Əliyev küçəsi 130, AZ1009

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir);
- iddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir);
- iddiaçının Dövlət Statistika Komitəsindən sahibkarlıq kateqoriyası haqqında arayış;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2021-ci il üzrə Vergi Bəyannaməsi);
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki);
- müvafiq lisenziya və icazələr;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
- iddiaçının fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar;
- iddiaçının analoji işlərdə obyektlərin tikintisi üzrə baş podratçı qismində həyata keçirdiyi və tətbiq etdiyi uğurlu ən azı 3 layihənin bitməsinə dair tövsiyə məktubunun və apardığı layihənin ilk və sonuncu sənədlərinin surəti;
- podrat müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maddi-texniki bazasının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olmasını təsdiq edən sənəd;
- iddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış;
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə tərtib olunan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **10 noyabr 2022-ci il saat 15:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **21 noyabr 2022-ci il saat 15:00-a** qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **22 noyabr 2022-ci il saat 15:00-da** Mirzağa Əliyev küçəsi 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi respublika üzrə bir sıra təhsil müəssisələrinin cari təmiri və abadlıq işlərinin satın alınması ilə bağlı açıq tender elan edir

Respublika üzrə bir sıra təhsil müəssisələrinin cari təmiri və abadlıq işlərinin satın alınması üçün açıq tender elan edir.

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:
Əlaqələndirici şəxs - Z.Quliyev.
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.
Tel: (+99412) 465 73 48 (daxili 134).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 1500,0 (bir min beş yüz) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. 01.09.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (01.09.2022-ci il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi oqranı, icra probasiya şöbəsi və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 01.09.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçı baş podratçı kimi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *iddiaçının maddi texniki bazası (sifarişi yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *AZS İSO 9001:2020, AZS İSO 14001:2020, AZS İSO 45001:2020 sertifikatları;*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 60 (altmış) bank günü);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **25 oktyabr 2022-ci il saat 11:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **02 noyabr 2022-ci il saat 17:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **03 noyabr 2022-ci il saat 15:00-da** Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov və İxtiyar Hüseynli BDU-nun Əmək və ekologiya hüququ kafedrasının müdiri, professor Alış Qasımova qardaşı

**İLDIRIM QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Azərbaycan Respublikası Ali Məhkəməsinin əməkdaşı Pərviz Hacıyevə qardaşı

**MÜZƏFFƏR HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektorluğu və kollektivi iş yoldaşları Zeynəddin Şabanova qardaşı

**ƏLİ ŞABANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Baş prokurorunun müavini, Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyevə əzizi

**ESMİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Dövlət Universiteti Hüquq fakültəsinin Əmək və ekologiya hüququ kafedrasının əməkdaşları kafedranın müdiri, professor Alış Qasımova qardaşı

**İLDIRIM QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Baş prokurorunun müavini, Azərbaycan Respublikasının hərbi prokuroru Xanlar Vəliyevə əzizi

**ESMİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Memarlar İttifaqı İdarə Heyətinin üzvləri Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadəyə Azərbaycan Memarlar İttifaqının üzvü, tanınmış memar

**DİRƏXŞƏN İSMAYIL OĞLU SƏLİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6469
Sifariş 2823
Qiyməti 40 qəpik